AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ

# “MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCANDA REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFININ MALİYYƏ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İsmayılzadə Ülkər Nurəddin**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**______________________imza**

**“___” __________ 2022-ci il**

# “MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCANDA REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFININ MALİYYƏ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ”

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060403 – Maliyyə

**İxtisaslaşma:** “Maliyyə menecmenti”

**Qrup:** 646

**Magistrant:**
**İsmayılzadə Ülkər Nurəddin qızı**
**_________________________imza**

**Elmi Rəhbər:**
**i.f.d., dos. Paşayev Zöhrab Şahin oğlu**
**______________________ imza**

**Proqram Rəhbəri:**
**i.ü.f.d. Vəliyev Cəbrayıl Xəlil oğlu**
**______________________ imza**

**Kafedra Müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**______________________ imza**

**BAKI - 2022**

## Elm andı

Mən, Ülkər İsmayılzadə Nurəddin qızı and içirəm ki, “Müasir şəraitdə Azərbaycanda regionların sosial-iqtisadi inkişafının maliyyə mexanizmlərinin təkmilləşdirilməsi” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**“MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCANDA REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFININ MALİYYƏ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ”**

## XÜLASƏ

**Tədqiqatın aktuallığı: Ölkədə həyat şəraitinin yüksəldilməsi siyasətinin izlənilməsi regionların sosial-iqtisadi inkişaflarına mane olan amillərin araşdırılması və aradan qaldırılmasını zəruri etmişdir. Bəzi hallarda seçilən maliyyə mexanizmləri qarşıya qoyulan məqsədlərə nail olmaq üçün imkan vermir və bunun nəticəsində cəmiyyət itki ilə qarşılaşır. Bu səbəbdən də, regional siyasətin formalaşdırılması, habelə onun maliyyə mexanizminin müəyyən edilməsi ətraflı formada əsaslandırma tələb etməkdədir.**

**Tədqiqatın məqsədi: Tədqiqatın əsas məqsədi regionların sosial-iqtisadi inkişafında maliyyə mexanizmlərinin təkmilləşdirilməsi üçün istiqamətləri müəyyən etmək, ölkənin inkişafa təsirlərini təhlil etməkdir.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqat, müqayisəli təhlil, ümumiləşdirmə, statistik tədqiqat, sintez və s. metodlarından istifadə edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Azərbaycanın regionlarında maliyyə mexanizmləri yerli, xarici tədqiqatçıların əsərlərindən, internet resurlarından ibarətdir.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqat zamanı maliyyə mexanizmin işğaldan azad edilən regionlar üzrə maliyyə hesablarında tədqiqatına dair məlumatlar limitlidir.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqat zamanı qeyd edilən amillər bu mövzunun ətraflı araşdırılmasının vacib olduğunu göstərir. Əsas məqsəd regionlarda davamlı inkişafa nail olmaq olduğu üçün mövzu aktuallığını daim qorumaqdır.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Aparılmış tədqiqat nəticəsində pandemiyadan sonra ölkə regionlarında maliyyə mexanizminin əsas istiqamətlərinə uyğun maliyyə sabitliyini təmin etmək üçün, o cümlədən maliyyə sektorunun təkmilləşdirilməsində işğaldan azad edilən regionlarda istifadə oluna bilər.**

***Açar sözlər: maliyyə, mexanizmlərin qiymətləndirilməsi, dövlət, pandemiya, regionların inkişafı.***

# “IMPROVING THE FINANCIAL MECHANISMS OF SOCIO-ECONOMIC DEVELOPMENT OF THE REGIONS IN AZERBAIJAN IN MODERN CONDITIONS”


## SUMMARY

**The actuality of the subject: Following the policy of improving living conditions in the country has made it necessary to study and eliminate the factors that hinder the socio-economic development of the regions.**

**Purpose and tasks of the research: The study's primary purpose is to identify areas for improving financial mechanisms in the socio-economic development of the regions and to analyze the impact on the country's development.**

**Used research methods: Methods of research, comparative analysis, generalization, statistical research, synthesis, etc., methods were used.**

**The information base of the research: Financial mechanisms in the regions of Azerbaijan consist of works of local and foreign researchers and Internet resources.**

**Restrictions of research: There is limited information on the study of the financial mechanism in the financial statements of the liberated regions during the study.**

**The novelty and practical results of investigation: The factors mentioned in the study indicate the importance of a detailed analysis of this topic. The main goal is to achieve sustainable development in the regions, so the issue is always relevant.**

**Scientific-practical significance of results: As a result of the research, it can be used to ensure financial stability in the country's regions after the pandemic by the main directions of the financial mechanism, as well as to use in the liberated regions to improve the financial sector.**



***Keywords: finance, evaluation of mechanisms, state, pandemic, development of regions.***

# İXTİSARLAR

**ABŞ:** Amerika Birləşmiş Ştatları

**AİB:** Asiya İnkişaf Bankı

**AR:** Azərbaycan Respublikası

**AZN:** Azərbaycan manatı

**ARPEF:** Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan

**ƏDV:** Əlavə Dəyər Vergisi

**KOB:** Kiçik və Orta Biznes

**KOBIA:** Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

**KOS:** Kiçik və Orta Sahibkar

**MDB:** Müstəqil Dövlətlər Birliyi

**SKMF:** Sahibkarlığa Kömək Milli Fondu

**SOCAR:** Azərbaycan Respublikası Dövlət Neft Şirkəti

**TANAP:** Trans-Anadolu Boru Kəmərinin

**TAP:** Trans Adriatik Boru Kəməri

**ÜDM:** Ümumi Daxili Məhsul

**ZB:** Ziraat Bankı

MÜNDƏRİCAT

**GİRİŞ......................................................................................................8**

**I FƏSİL. REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI VƏ ONUN MALİYYƏ MEXANİZMLƏRİNİN NƏZƏRİ-METODOLOJİ ASPEKTLƏRİ....................................................................................12**

1.1. Regionların sosial-iqtisadi inkişafının nəzəri-metodoloji əsasları.................12

1.2. Maliyyə mexanizmlərinin qiymətləndirilməsinə müxtəlif yanaşmalar.............22

**II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA MALİYYƏ MEXANİZMLƏRİNİN TƏTBİQİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ.........34**

2.1.Azərbaycan regionlarının sosial-iqtisadi inkişafının müasir vəziyyətinin təhlili...................................................................................................34

2.2.Azərbaycanda regionların sosial-iqtisadi inkişafında maliyyə mexanizmlərinin qiymətləndirilməsi və təhlili...........................................................................50

**III FƏSİL. REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA MALİYYƏ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ.......60**

3.1. Regionların sosial-iqtisadi inkişafında maliyyə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri ..........................................................................60

3.2 Müasir şəraitdə ölkənin maliyyə sektorunun vəziyyəti və regionların sosial iqtisadi inkişafına təsiri..........................................................................................66

**NƏTİCƏ VƏ TƏKLİFLƏR...........................................................................75**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI..............................................78**

Cədvəllərin siyahısı....................................................................................................84

Qrafiklərin siyahısı.....................................................................................................84

## GİRİŞ

**Mövzunun aktuallığı:** Müasir şəraitdə Azərbaycanda regionların sosial-iqtisadi inkişafının maliyyə mexanizmlərinin təkmilləşdirilməsi mövzusu günümüzdə vacib və araşdırılması zəruri olan mövzudur. Çünki ölkəmiz də iqtisadi tərəqqi üçün regionların iqtisadi potensiallarından maksimal istifadəni hədəfləyən hər bir dövlət kimi regionların inkişafını, regionlararası sosial-iqtisadi fərqlərin aradan qaldırılmasını iqtisadi inkişafın prioritet istiqaməti olaraq müəyyən etmişdir. Azərbaycanda daim regionlarda iqtisadi inkişafa xüsusi yer ayrılmış və bunun üçün labüd tədbirlər görülmüşdür. Lakin regionların coğrafi mövqeyi, təbii ehtiyatları, sənaye mərkəzlərinə yaxınlığı kimi amillər sosial-iqtisadi inkişafları arasında fərqlərin yaranmasına səbəb olmuşdur. Bunun üçün dövlət zəmnində regionlarda iqtisadi inkişafın yol xəritələrini müəyyən edən dövlət proqramları irəli sürülmüşdür. Uzun illər düşmən tapdağı altında olan Dağlıq Qarabağ və ətraf rayonların işğaldan azad edilməsi ilə bu region üçün də inkişaf proqramlarının hazırlanması aktual olmuş, müxtəlif tədbir və proqram layihələri irəli sürülmüşdür.

**Problemin qoyuluşu və öyrənilməsi səviyyəsi:** Bu araşdırmada qoyulan problem müasir dövrdə regionların sosial-iqtisadi inkişafında mühüm rol oynayan maliyyə mexanizmləri və onların təkmilləşdirməsi yollarının aşkarlanmasıdır. Hazırda ölkədə regionların sosial-iqtisadi inkişafı normativ sənədlərdə öz əksini tapmış, dövlət proqramları qəbul edilmişdir. Bu dövlət proqramlarının reallaşdırılması məqsədilə Prezident tərəfindən sərəncamlar imzalanmış, icraedici orqanlar müəyyən edilmişdir. Regionların sosial-iqtisadi inkişafında "region" anlayışının öyrənilməsi, onun ehtiva etdiyi məna mühüm əhəmiyyət kəsb edir. Regionu, onun problemlərini və perspektivlərini araşdırmaq problemin qoyuluşu baxımından önəmlidir. Daha sonra önəmli yeri bu inkişafı təmin edəcək maliyyə mexanizmləri tutur. Bu maliyyə mexanizmlərini detallı nəzərdən keçirmək onların praktiki işləkliyini,üstünlüklərini və çatışmazlıqlarını müəyyən etməyə fürsət yaradır. Çatışmazlıqların araşdırılması nəticəsində onları aradan qaldırmaq üçün maliyyə mexanizmlərinin hansı istiqamətdə təkmilləşdirilməsininin vacib olduğunu

aydınlaşdırmaq olar. Qeyd edək ki, problemin öyrənilməsi həm xarici, həm də yerli mənbələr tərəfindən ətraflı aparılmışdır. Xüsusən, araşdırmanın nəzəri bazası xarici mənbələrə istinad edərək hazırlanmışdır. Burada alman, ingilis iqtisadi məktəbinin nəzəriyyəçilərinin araşdırmalarına istinad edilmişdir.

Dissertasiyanın daha çox praktiki hissəsi olaraq dəyərləndirilən Azərbaycandakı maliyyə mexanizmləri, onların mövcud işləkliyi, təkmilləşdirilməsi yolları isə mövcud dövlət proqramları, yerli iqtisadçılar və müəlliflərin araşdırmalarına əsaslanmaqdadır. Abdullayev S. Q., Ataşov B.X., Novruzov N. A., İbrahimov E.Ə., Bədəlov Ş.Ş., Əkbərov R.M., Gülməmmədova İ.H., Hüseynova X. M.,Quliyeva A.E., Mahmudov M.M., Mahmudova İ.M., Məmmədova N.İ., Namazova N.V. və bir çox yerli tədqiqatçıların, o cümlədən Postnova M.V., Samuel B.S.,Veronica V.N., Alla G.G.,Denis E.G., Oleg A.K., Tatiana M.K., Nikolai S. S.,Yuri B. M., Nina V. N. və başqa xarici tədqiqatçıların məqalələrinə istinadlar verilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Regionlarda yoxsulluğun azaldılması, yerli və xarici kapitalın cəlb edilməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yeni iş yerlərinin yaradılması, müasir texnologiyanın tətbiqi, iqtisadi gücün artırılması, infrastrukturun yenilənməsi, işsizliyin azaldılması, biznes mühitinin inkişaf etdirilməsi kimi hədəflərə çatmaqda dövlətin atdığı addımlar, tətbiq olunmuş maliyyə mexanizmlərinin və onların rolunu araşdırmaq məqalənin əsas məqsədini əks etdirməkdədir.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti Azərbaycanda regionların sosial-iqtisadi inkişafını təmin edən bir çox maliyyə mexanizmləridir, predmeti olaraq da Azərbaycanın bir çox regionları, xüsusilə də işğaldan azad edilən bölgələrdir.

**Tədqiqat metodları:** Tədqiqat zamanı Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı üzrə bir neçə metodlar və təhlillər reallaşdırılmışdır ki, bunlardan da birincisi təhlil metodu olmuşdur. Bu metodla sosial-iqtisadi inkişafın tənzimləməsi

üçün bir sıra tədqiqat işləri və ədəbiyyat formaları təhlil olunmuşdur. Müqayisəli üsuldan istifadə ilə sonda analiz olunan tədqiqat işlərinin hər biri və ədəbiyyatlar qarşılaşdırılmışdır.

Bu araşdırılmış ədəbiyyatlar vasitəsilə də Azərbaycanda regionların sosial inkişafında maliyyə mexanizmləri qiymətləndirilmişdir. Modelləşdirmə metodu mövcud tədqiqat obyektinin süni formada yaradılan bir modelə köçürülməsi üçün aparılan təhlillərdən biridir. Bu, həmin vəziyyətlərin daha uğurlu modelləşdirilməsi üçün, o cümlədən reallıqda əldə edilməsi çətin olacaq nəticələr üçün edilir.

**Tədqiqatın informasiya bazası:** Tədqiqat işi zamanı Azərbaycan regionlarının sosial-iqtisadi inkişafının müasir vəziyyətinin öyrənilməsi üçün ixtisaslaşmış ədəbiyyatdan, normativ və hüquqi aktlardan, təlimatlardan və jurnallarda nəşr olunan elmi yazılardan istifadə edilmişdir. Bu tədqiqat işinin elmi-nəzəri əsasını sosial-iqtisadi inkişaf üçün proqramların ideologiyası, strukturfunksional təhlil, detallaşdırılan sistemli yanaşma, iqtisadi nəzəriyyə, iqtisadi, sosial, strateji, o cümlədən də idarəetmə qərarlarının qəbulu nəzəriyyəsi, maliyyə idarəetməsi və s. təşkil etməkdədir.

Təhlil zamanı Azərbaycanın Kənd Təsərrüfatının və Azərbaycan regionlarının Statistik göstəricilərindən istifadə edilmişdir. Bir sıra məsələlərin həll edilməsində sosial-iqtisadi inkişafda sistemin sintezi və morfoloji təhlilindən, qərarların qəbulu zamanı çoxkriteriyalı metodlardan və ekspert qiymətləndirməsindən də istifadə edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** Tədqiqat xüsusi sosial-iqtisadi inkişafın təsirlərini Azərbaycanda aşkar etmək və onları ölçmək üçün nəzərdə tutulmuşdur. Sosial-iqtisadi inkişaf proqramlarının tətbiqi ilə nəticələrini geniş miqyaslı proqnozlaşdırmağa və tədqiqatlara ehtiyac var.

Tədqiqat zamanı sosial-iqtisadi inkişaf proqramlarının təsirləri üçün yerli informasiya bazası üzrə məlumatlar limitlidir . Xüsusən də, Azərbaycanda davam

etməkdə olan pandemiya və Qarabağ məsələsinin bu inkişafla bağlı təsirlərini tam ölçmək mümkün deyil, bu aspektlə dair kifayət qədər elmi məqalə mövcud deyil.

**Tədqiqatın elmi yeniliyi**: Burada olan tövsiyələr, elmi və nəzəri işlənmələrin hər biri Azərbaycanda regionlarda sosial-iqtisadi inkişafının təmin edilməsində, o cümlədən regionlarda maliyyə mexanizmlərinin təkmilləşdirilməsi üçün istifadə oluna bilər.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Tədqiqata əsasən əldə edilən bir çox mühüm nəticələrə, müddəalara və tövsiyələrə əsasən Azərbaycanın regional subyektinin sosial-iqtisadi inkişafı strategiyasının, onun həyata keçirilməsinə aid tədbirlər planı, ərazilərdə maliyyə mexanizmlərin tənzimlənməsi üzrə təlimatlar hazırlanmalıdır.

# I FƏSİL. REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI VƏ ONUN MALİYYƏ MEXANİZMLƏRİNİN NƏZƏRİ-METODOLOJİ ASPEKTLƏRİ

## 1.1. Regionların sosial-iqtisadi inkişafının nəzəri-metodoloji əsasları

Hər bir ölkə üçün sosial-iqtisadi inkişafın təmin edilməsi zəruridir. İqtisadi inkişaf siyasəti və bu çərçivədə regional inkişaf anlayışı İkinci dünya müharibəsindən sonra dünya ölkələrinin önəm verdiyi və bu sahədə araşdırmaların artdığı mövzu olmuşdur. Regional inkişaf qlobal müstəvi ilə yanaşı ölkədaxili inkişafın əsas parçası olaraq da bilinməkdədir. Regional iqtisadi fərqliliklər demək olar bütün ölkələrin quruluşunda mövcuddur. Dövlətlərin əsas hədəfi regional qeyri-bərabərliyi aradan qaldırmaq və davamlı, balanslı iqtisadi tərəqqini təmin etmək olmuşdur (Bogdanski M., 2012: s.27). Regional fərqliliklərə yer vermədən əvvəl region fenomeninin çərçivəsi müəyyən edilməlidir. Qeyd edək ki, region anlayışına müxtəlif müəlliflər tərəfindən tərif verilmişdir. Məsələn, Avropa Birliyinin Statistika ofisi 2010-cu ildə dərc etdiyi jurnalında region anlayışını aşağıdakı şəkildə ifadə etmişdir: region dağ, sahil, meşə və başqa coğrafi nüanslar baxımından, quraqlıq və yüksəklik , yağış kimi iqlim anlayışları baxımınından, istifadə edilən dil baxımdan eyni etnik köklərə və tarixə sahib ərazilərdir (Bogdanski M., 2012: s.28). Bununla yanaşı, Avropa ölkələrində region anlayışı siyasi, mədəni və nəzarət mexanizminə görə də fərqli mənalar ifadə etməkdədir. Digər tərəfdən regional iqtisadi inkişafı tədqiq edən E.B.Alayev, N.N.Nekros, V.Nasiorkovski, P.Ceyms və A. Martin kimi araşdırmaçılar da region fenomenini öz aspektlərindən dəyərləndirmişlərdir. E.B.Alayevə görə region səmərəli ixtisaslaşmaya malik ərazi olduğu halda, N.N.Nekros tərəfindən maddi texniki baza və təbii resurslar baxımdan eyni cinsli olan ölkə ərazisi olaraq tərənnüm edilmişdir (Gülməmmədova İ.H., 2015: s.9-10). V. Nasirovski qeyd edir ki, "region digər kateqoriyalarla müqayisədə yüksək inkişaf etmiş istehsal, nəqliyyat və sosial infrastrukturu olan elə bir inzibati ərazi

birliyidir ki, burada əhali ilə daima sosial və mədəni əlaqələr yüksək səviyyədə qurulmuşdur (Hüseynova X. M., 2010: s.17). P.Ceyms və A.Martin isə hesab edirlər ki, region müəyyən xüsusiyyətləri ilə seçilən amma dəqiq müəyyən edilmiş sərhədləri olmayan ərazidir. Harvard Universitetindən professor Qare isə bildirib ki, dövlətlərin sərhədini müəyyən etmək mümkün olsa da, region nə inzibati nə də siyasi vahid kimi çıxış edir (Gülməmmədova İ.H., 2015: s.9-10). Vufter isə regionu öz sərhədləri daxilində təbii və iqtisadi amillərin yaratdığı ərazi olaraq dəyərləndirir. Yerli iqtisadçılarımız olan M.M.Mahmudov və İ.M.Mahmudova region dedikdə eyni element və komponentləri özündə birləşdirən və mütəmadi inkişaf edən ərazi vahidinin nəzərdə tutulduğunu qeyd etmişdir (Gülməmmədova İ.H., 2015: s.9-10). Ə. Nuriyev isə regionu bir neçə xüsusiyyətlərinə görə digərlərindən fərqlənən və bu səbəbdən vahid, bütün kimi xarakterizə edilən dünyanın və ya hər hansı ölkənin ərazi hissəsi olaraq qiymətləndirmişdir. Əvvəlki tədqiqatlarda regiona sadəcə təbii sərvətlərin, insan kapitalının, məhsulların istehsal və istehlakının, xidmətin toplandığı ərazi vahidi kimi yanaşılırdı. Regiona iqtisadi münasibətlərdə rola malik olan bir anlayış kimi yanaşılmırdı. Lakin müasir tədqiqatlarda artıq regiona çoxfunksiyalı və çoxlu aspektləri olan sistem kimi baxılır (Hüseynova X. M., 2010: s.60).

Gördüyümüz kimi, region anlayışının dəqiq müəyyən edilmiş və hamı tərəfindən standart meyar olaraq qəbul edilən tərifi yoxdur. Bunun da əsas səbəbi olaraq həm regional problemlərə, həm də regionların təsnifləşdirilməsinə dair elmi ədəbiyyatlarda vahid metodologiyanın olmaması vurğulanır. Buna baxmayaraq fərqli yanaşmalara nəzər salmaq region anlayışını anlamaqda faydalıdır.

Bugün regionların sosial-iqtisadi vəziyyətinin təhlil edilməsi, inkişafa mane olan amillərin müəyyən edilərək aradan qaldırılması zəruri hesab edilir. Regionların inkişaf göstəricilərinə diqqət edəndə regionlar arasında qeyri-bərabərliyin olduğu aydın olur. Regionlararası qeyri-bərabərlik sərmayə və əməyin müəyyən regionlarda toplanması nəticəsində ortaya çıxır və regional tarazlığın pozulmasına gətirib

çıxarır. İqtisadi fəaliyyətlərin müəyyən bölgələrdə toplanmasının əsas səbəbləri coğrafi, iqtisadi, sosial- mədəni və digər səbəblərdir.

Ölkə sərhədləri daxilində regionlar arasındakı inkişaf fərqlərini araşdırdıqda `bitki örtüyü, relyef, rabitə, nəqliyyat yollarının uyğunluğu kimi məsələlər hər bir regionda müxtəlifdir, bu da öz növbəsində, regionların inkişafına təsir göstərir (Uğur O., 2017: s.7).

Regional inkişafdakı fərqliliklərin digər səbəbi isə adət-ənənələrdəki fərqlilikləri özündə birləşdirən sosial-mədəni fərqliliklərdir. Elə regionlar var ki, onlar tarix boyu qapalı bölgələr olub və yeniliklərə açıq deyillər. Bu regionların inkişafı gec və yavaş olacaqdır. Yeniliklərə, texnologiyadakı innovasiyalara açıq olan və tez adaptasiya ola bilən regionların inkişaf sürəti açıq şəkildə hiss ediləcəkdir. Etnik ayrılıqlar, demoqrafiq vəziyyət də regionlar arasında inkişaf baxımdan müxtəlifliyə səbəb olur. Sosial-mədəni amillər ilə yanaşı, siyasi amillər də regionların inkişafına təsir göstərə bilir. Məsələn, regionların siyasi qüvvələrindəki fərqliliklər də dövlətlərin siyasətinə yön verməsinə səbəb ola bilir.

Bu regional bərabərsizliklərlə bağlı üç yanaşma mövcuddur. Birinci yanaşmaya görə regionlararası bərabərsizlik inkişaf etmiş ölkələrdə azalmağa doğru gedəcək və əksinə zəif inkişaf etmiş ölkələrdə daha da geniş vüsət alacaq. İkinci yanaşmada sosial-iqtisadi inkişafın zaman getdikcə daha böyük ərazini əhatə edəcəyi, hətta bütün ölkəyə yayılaraq regionlararası bərabərsizliyin yoxa çıxacağı təxmin edilir. Üçüncü və sonuncu yanaşmaya görə isə hansı ölkələrdəki dövlət müdaxiləsi həddən artıq çoxdur, bu ölkələrdə regionlar arasında sosial-iqtisadi inkişaf cəhətdən bərabərsizliklər daha da artacaqdır (Gülməmmədova İ.H., 2015: s.12).

Bu səbəbdəndir ki, iqtisadçılar tərəfindən mövcud regional inkişaf nəzəriyyələri və konsepsiyalar dinamik şəkildə araşdırılır. Çünki bu nəzəriyyələr regionlardakı dəyişikliyin səbəblərini aşkarlamağa, və mövcud potensialdan maksimal şəkildə istifadəyə töhfə verə bilər. Qeyd etdiyimiz regional inkişaf nəzəriyyələrini aşağıdakı kimi sistemləşdirmək olar:

**Qrafik 1:Regional inkişaf nəzəriyyəsi.**




**Mənbə:** müəllif tərəfindən yaradılmışdır.

Regional sosial-iqtisadi inkişafa dair nəzəriyyələrin ilk qrupunun, yəni regionların müəyyən məhsullar üzrə ixtisaslaşmasını və bu məhsullar üzərindən regionlararası ticarətin də inkişaf etdirilə biləcəyini önə sürən nəzəriyyələr beynəlxalq-iqtisadi münasibətlər nəzəriyyələri arasında ortaya çıxmışdır. Bu qrupun iqtisadi tədqiqatçılarına ingilis siyasi-iqtisad məktəbinin klassik nəzəriyyəçiləri olan Adam Smit, David Rikardo, isveç iqtisad məktəbindən Eli Hekşer və Bertil Ohin nümunə göstərilə bilər.

Klassik iqtisad məktəbinin nümayəndəsi olan Adam Smit təklif edirdi ki, regionların inkişafını təmin etmək üçün mütləq ixtisaslaşma vacibdir. Yəni hər bir region mütləq üstünlüyə malik olduğu məhsulu istehsal edərsə və satışıyla məşğul olarsa, həm öz inkişafını təmin edər, həm də digər regionlarla əməkdaşlıq üçün şərait yaranmış olar.

Mütləq üstünlük daha az xərcli hesab olunur, Adam Smit regionlararası ticarətin üstünlüklərini bu şəkildə izah edir: "Əgər başqa region bizi istehsal etdiyimizdən daha az xərclə başa gələn məhsulla təmin edə bilirsə , bizim məhsuldar və üstünlüyümüzün olduğu məhsul qarşılığında onların mütləq üstünlüyünün olduğu məhsul və ya xidməti almaq ən yaxşı seçimdir (Veronica V.N. və başqaları, 2016: s.3). Bu da digər regionun da iqtisadi baxımdan inkişaf etməsinə, ticarət əlaqələrinin inkişaf etməsinə gətirib çıxaracaqdır. Bu nəzəriyyəni bir nümunə üzərindən izah edək. Məsələn, əgər bir region kartof istehsalında mütləq üstünlüyə malikdirsə, ət istehsalında üstünlüyə malik olan regionla sövdələşmə edərsə, bu sövdələşmədən

hər iki tərəf qazanclı çıxacaq. Həm hər iki region əhalisini lazımi məhsulla təmin edəcək, həm də sosial-iqtisadi inkişaf baxımından iki regionda da irəliləyiş olacaq.

David Rikardo isə daha da irəliyə gedərək Adam Smitin təklifini inkişaf etdirdi. O, belə qənaətə gəldi ki, önəmli olan məhsulun istehsalında mütləq üstünlüyün olması deyil, müqayisəli üstünlüyün olmasıdır. David Rikardo nəzəriyyəsinə görə müqayisəli üstünlüklər regionlar arasında texnoloji inkişaf fərqinə, daha dəqiq desək istehsal amillərinin inkişafındakı fərqə görə yaranır və istehsalın nisbi xərclərinin müqayisəsi ilə müəyyən edilir. Beləliklə, regionun müqayisəli üstünlükləri nəzəriyyəsinə görə bir məhsul vahidi istehsal edən region digərinə nisbətən daha az məhsuldar qüvvə sərf edir (Veronica V.N. və başqaları, 2016: s.7729). Bu səbəbdəndir ki, istehsal xərcləri yüksək olan regionlar minimal xərci avantaja çevirərək ixtisaslaşma və məhsul mübadiləsindən qazanclı çıxa bilərlər. Bununla yanaşı, əgər bir region bir neçə sahə üzrə ixtisaslaşarsa, bütün sahələrin inkişafına şərait yaranar.

Hekşer-Ohlin modeli regionun istehsal amillərini(kapital, əmək, xammal, informasiya) və onların müxtəlif əmtəələrin istehsalında nisbətlərini təmin etmək və müqayisəli üstünlüyü müəyyən etməyi nəzərdə tutur (Veronica V.N. və başqaları, 2016: s.7729). Bu model də Adam Smit və David Rikardo kimi regionların ixtisaslaşmasının labüdləyini vurğulayır. Model nəzərdə tutur ki, əgər bir regionda hər hansı bir məhsul artıq istehsal olunursa və istehsal xərcləri daha aşağıdırsa, həmin məhsulu digər bir regionla ticarətdə mübadilə etmək daha məqsədəuyğundur. Digər tərəfdən, əgər bir məhsulun istehsalı baha başa gəlirsə və ya resurslar limitlidirsə, bu zaman həmin məhsulu başqa regiondan almaq daha sərfəlidir. Bundan başqa bu modelə görə hansı regionda ki, insan kapitalı çoxdur, lakin texnologiya nisbətən zəif inkişaf etmişdir, bu regionlar əməktutumlu məhsul istehsalına daha çox üstünlük verməlidirlər və bu sahə üzrə ixtisaslaşmalıdırlar.

Ümumiyyətlə, bu nəzəriyyələrdən belə qərara gələ bilərik ki, regionların sahib olduğu resurslardakı müxtəliflik yalnız məhsulların regionlararası hərəkəti ilə

avantaja çevrilə bilər. Bu da bütün regionların gəlirlərinin nisbətən bərabərləşməsinə şərait yaradır (Hüseynova X. M., 2010: s.50). Məsələn , Lənkəran–Astara iqtisadi coğrafi rayonu çay bitkisi istehsalı üzrə ixtisaslaşmışdır. Çünki bu region çay bitkisinin yetişdirilməsi üçün zəruri olan resurslarla zəngindir. Mərkəzi Aran isə pambıqçılıq üzrə ixtisaslaşmışdır. Baxmayaraq ki, cənub bölgəsində pambıq yetişdirilməsi üçün şərait yoxdur və eynilə Mərkəzi Aranda çay bitkisini yetişdirmək çətindir, yenə də qarşılıqlı mübadilə ilə bu regionlar öz əhalisini bu məhsullarla təmin edə bilərlər. Nəticə etibarilə, bu ticarətdən hər iki region mənfəətli çıxacaq. Regional iqtisadiyyatın əsas təməlini təşkil edən nəzəriyyələrin ikinci istiqamətinin qurucusu İohan Henrix Von Tyünen hesab edilir. Məhz regional bölgü barədə ilk sistemli yanaşma Tyunenə aiddir. Tyünen modeli əsas ticarətin aparıldığı mərkəz region və onun digər ətraf regionlar üzərindəki təsirini nəzərdə tutur (https://www.sciencedirect.com/topics/earth-and-planetary-sciences/von-thunen-model, 2021). Tyünenin fikrincə məkan əngəli nəqliyyat vasitəsilə aradan qaldırıla bilər. Buna görə də istehsal edilən məhsulun qiymətini müəyyən edən amillərdən biri də məhz nəqliyyat xərcləridir. Əslində Tyunenin yanaşmasına diqqət etdikdə ona qədər mövcud olan nəzəri fikirlər hansı ki, Adam Simit, David Rikardo və digərləri tərəfindən irəli sürülüb, məkan analizinin əlamətlərini daşıyırdı. A.Smit və D.Rikardodan sonra 1826-cı ildə nəşr olunan "Kənd təsərrüfatına və milli iqtisadiyyata qarşı münasibətdə təcrid olunmuş dövlət" (Məmmədova N. İ., 2016: s.20) əsərinin müəllifi alman əsilli iqtisadçı Tyünen əsərində nəqliyyat vasitəsi olaraq atların istifadə olunduğu dövrdə ticarətin geniş olduğu mərkəzi regionlardan uzaqlaşdıqca kənd təsərrüfatı və ticarətin izolyasiya olduğunu qeyd etmişdir. Mərkəzi regiona kənd təsərrüfatı məhsullarının daşınması ilə bağlı xərclər ətraf regionların kənd təsərrüfatı ərazilərinin istifadə olunub-olunmayacağını müəyyənləşdirir. Belə ki, ən aktiv istehsal mərkəz regiona yaxın torpaqlarda baş tutur, məhsuldar olmayan fəaliyyətlər mərkəzdən kənarda aparılır. Nəticə etibarilə, intensiv əkinçilik meşə ərazisindən daha çox mərkəzi regiona yerləşdiriləcək.

Tyünen modelinin əsas ideyası mərkəz region ətrafında konsentrik dairələr şəklində kənd təsərrüfatı əraziləri formalaşır, hansı ki, mərkəzi region onların məhsullarını istehlak edir. Tyünen modelinin əsas çatışmazlığı ancaq təcrid olunmuş region anlayışına kökləndiyi üçün regionların yerli, fiziki şəraitinin nəzərə alınmamasıdır.

Digər Alman nəzəriyyəçisi V.Laundhard "Sənaye müəssisələrinin yerləşməsi" nəzəriyyəsi ilə məkan nəzəriyyələrinə öz töhfəsini vermişdir. O, sənaye müəssisələri yerləşdirilərkən xammal mənbələrinin və istehsal olunacaq məhsulun satış bazarlarının lokasiyasının labüdlüyünü araşdırmışdır. Laundhard 1872-ci ildə öz araşdırmasına istiqamət planlamasının texniki aspektlərinin kommersiya kommunikasiyası ilə əlaqələrini izləməklə başlayıb. Yolsalmada əsas kriteriya ümumi nəqliyyat xərclərini mümkün ola biləcək aşağı səviyyəyə salmaqdır. Həll yolu ərazi qədər nəqliyyat vəziyyətindən də asılıdır. Belə ki, nəqliyyat vəziyyəti ən az ərazinin xarakteri qədər dərindən, diqqətlə araşdırılmalıdır.

Laundhard nəqliyyat xərclərinin istehsalın yerləşdirilməsində mühüm amil olduğu barədə Tyünen ilə razılaşır və lokasiyanın bütün mümkün nöqtələri üçün istehsal xərclərinin eyni olduğunu bildirir (Hüseynova X. M., 2010: s.52). Ərazi və nəqliyyat xərci kimi iki vacib dəyişənin eyni zamanda olan təsiri ilə mübarizə aparmaq , əlbəttə, çətindir. Buna görə də Laundhard təklif edir ki, ərazinin vəziyyəti məsələsi kənara qoyulsun, "mükəmməl, dəyişməyən və horizontal yerlə mübarizə nəzərdə tutulsun", yəni istiqamət ancaq nəqliyyat xərclərinin planlaması üzrə olsun. Daha sonra o, uydurma nəqliyyat vəziyyətinin təsirlərini daha yaxşı araşdırmaq üçün Eklidin boşluğu uydurma keysini istifadə edir. Bu yolla o nəqliyyat və kommersiya izini əldə edir. Bunlardan yola çıxaraq Laundhard "Lokasiya üçbucağı" metodunu işləyib hazırlamışdır.

İstehsalda məkan amilini dəstəkləyən nəzəriyyələr arasında alman iqtisadçı Veberin də mövqeyi diqqətə alınmalıdır. O, 1909-cu ildə dərc olunmuş "Sənayenin yerləşdirilməsi haqqında xalis məkan nəzəriyyəsi" əsərində istehsalın yerləşdirilməsinə təsir edən amilləri ətraflı şəkildə araşdırmışdır (Məmmədova N. İ.,

2016: s.21). O hesab edirdi ki, bu lokasiyada əsas amil iqtisadi faydadır. Burada məkan seçimi elə edilməlidir ki, həm məhsul istehsalı az xərclə başa gəlsin, həm də məhsulun satışı ən aşağı xərclə reallaşsın. Buna görə də Veberin nəzəriyyəsi "məkan üçbucağı" adlandırılır. Veber bu nəzəriyyəsində iki xammal mənbəyi əsasında əmtəənin istehsalı üçün optimal yeri axtarırdı. O, xammalın hər iki sahədən istehsal ərazisinə və məhsulun istehsal mərkəzindən bazara daşınması ilə bağlı yaranacaq xərcləri hesablayaraq üçbucaq daxilində ən ucuz istehsal yerini müəyyənləşdirməyə çalışırdı (bax: Qrafik 2)

Aşağıda "məkan üçbucağı" qrafiki formada göstərilmişdir:

**Qrafik 2: Veberin "məkan üçbucağı"**




**Mənbə:** Veberin nəzəriyyəsi əsasında müəllif tərəfindən tərtib olunmuşdur

Xammalın və son əmtəənin çəkisi nəqliyyat xərclərini və istehsalın yerini müəyyən edən əsas amildir. İstehsal zamanı kütləsini itirən əmtəələr istehsal sahəsindən(zavod) bazara xammal sahəsindən istehsal sahəsinə nisbətən daha ucuz nəql edilə bilər. Beləliklə, istehsal sahəsinin xammal mənbələrinin yaxınlığında yerləşməsi daha məqsədəuyğundur. İstehsal zamanı xammal böyük kütlə itirməsə belə, əgər bazar istehsal sahəsinə yaxın yerləşirsə, bu zaman da nəqliyyat xərcləri aşağı ola bilər. Üçbucaqda ən az nəqliyyat xərci olan yer müəyyən edildikdən sonra Veber ucuz işçi qüvvəsi ilə alternativ yer müəyyən etməyə çalışdı. Əvvəlcə o,

nəqliyyat xərclərinin ən az nəqliyyat xərci olan yerə görə dəyişməsini qurdu. Sonra o, üçbucaq ətrafında ən az nəqliyyat xərci olan yerdən daha az əmək xərcləri olan əraziləri müəyyənləşdirdi. Əgər nəqliyyat xərcləri əmək xərclərindən azdırsa, o zaman ucuz işçi qüvvəsi ilə alternativ yer müəyyən edilmişdir (https://www.accountingtools.com/articles/what-is-order-of-liquidity.htm, 2022).

Əslində Veberin nəzəriyyəsi daha mükəmməldir. O ancaq öz mahiyyətini saxlayan məkan amillərini nəzərdən keçirmişdir. Nəzəriyyənin daha anlaşılan olması üçün o yalnız fərdi situasiyalara aid olan xüsusi amilləri qoruyub saxlamışdır.

Məkan nəzəriyyələrinin inkişafında növbəti forma kimi yaşayış məntəqələrinin yerləşdirilməsi nəzəriyyələri ortaya çıxmışdır. Bu nəzəriyyədən çıxış edərək "mərkəzi ərazilər" konsepsiyasını məhz Volter Kristoller irəli sürmüşdür. Krsitoller sadəcə öz əhalisini deyil, həmçinin ətraf regionlardakı əhalini xidmət və ya məhsulla təmin edən mərkəzləri "mərkəzi ərazilər" olaraq adlandırırdı. Bu nəzəriyyəyə görə zaman keçdikcə satış və xidmət zonaları altıbucaqlı forma yaradır. Buna arı pətəyi və ya Kristoller şəbəkəsi deyilir (Hüseynova X. M., 2010: s.55). Kristollerin nəzəriyyəsinə əsasən məhsul və xidmətlər zərurilik dərəcəsinə görə bölgələr üzrə yerləşdirilməlidir. İlkin ehtiyac məhsullarının əhali üçün əlçatan olması üçün bütün yaşayış məntəqələrində yerləşdirilməlidir. Daha az ehtiyac duyulan məhsullar nisbətən orta yaşayış məntəqələrində, daha lüks məhsul və ya xidmətlər(teatr, muzey və s) əsasən böyük şəhərlərdə mövcud olmalıdır. Paul Kruqman da bu iqtisadi nəzəriyyə məktəbinin nümayəndəsi kimi iqtisadiyyatın məkan qütbləşməsinin əsas göstəricisi kimi məkanın urbanizasiya və metropolitenləşmə prosesini görürdü. Kruqmanın qeyd etdiyi kimi, fon Tyünen konsepsiyası iqtisadi fəaliyyətdən əldə edilən gəlirlərin mərkəzi yerdən uzaqlıqla necə əlaqəli olduğunu çox dəqiq şəkildə izah edir, lakin izah etmədiyi bir şey var: hansı mexanizmlər həmin mərkəzin yaradılmasına gətirib çıxardı (Bogdanski M., 2012: s.33).

Regionların sosial-iqtisadi inkişafında üçüncü qrup nəzəriyyələr regional sosial-iqtsadi inkişafda dövlət tənzimləməsini dəstəkləyir. Sosial-iqtisadi inkişafda dövlətin rolunun artırılması məsələsi 1929-1932-ci illəri əhatə edən dünya iqtisadi böhranının nəticəsi kimi ortaya çıxdı (ttps://www.sciencedirect.com/topics/earth-and-planetary-sciences/von-thunen-model, 2021). Böhran səbəbindən kəskinləşən regionlararası iqtisadi vəziyyət dövlət amilini önə çıxartdı. Bu sahədə ilkin nəzəriyyələrin müəllifləri S.R. Dennison və A. Leş olmuşdur (Hüseynova X. M., 2010: s.71). S.R. Dennison dövlətin ilk öncə problemli regionlarının inkişafına yönəlik tədbirlər görməsini ifadə edərkən, A.Leş dövlətin rolunun məhdud səviyyədə saxlanılmasını təklif edirdi. Ümumlikdə regionların sosial-iqtisadi inkişafında dövlət tənzimləməsini öngörən nəzəriyyələr iki qrupda bir araya gətirilə bilər:

**Qrafik 3: Regionların sosial-iqtisadi inkişafında dövlət tənzimləməsini öngörən nəzəriyyələr**




**Mənbə:** Hüseynova X. M. (2010), "Azərbaycanda regional inkişafın idarə olunması problemləri", səh.71.

Balanslı regional inkişaf nəzəriyyələrinə görə sektoral və ya regional formada olmasından asılı olmadan inkişafa nail olmaq zəruridir. Bu nəzəriyyəni dəstəkləyənlər iddia edirlər ki, əvvəlki dövrlərdə qeyri-bərabər inkişaf etmiş ölkələrin hal-hazırda "inkişaf etmiş ölkələr" olmasının əsas səbəbi bu bərabər olmayan və bir-birindən fərqli dərəcədə gedən inkişafı tarazlı inkişafa yönəldə bilmə bacarıqlarıdır. Disbalanslı və ya regional iqtisadi artım və ya inkişaf nəzəriyyələri daha az kapital tələb edir, çünki ancaq iqtisadiyyatın aparıcı sahələrinə yatırım etməyi və önəm verməyi tövsiyə edir. Lakin bu balanslı inkişafdan fərqli olaraq qısa müddətli strategiya hesab olunur (https://www.business.org/finance/loans/crowdfunding-vs-peer-to-peer-lending/, 2020).

Regionların hər birinin özünəməxsus və fərqli inkişaf xüsusiyyətlərinə sahib olduğunu nəzərə alaraq regional sosial-iqtisadi inkişafa yönəldilmiş nəzəriyyələrdən uyğun nəzəriyyənin müəyyən edilib tətbiq edilməsi regional inkişafda uğurlu nəticələrə gətirib çıxara bilər.

## 1.2. Maliyyə mexanizmlərinin qiymətləndirilməsinə müxtəlif yanaşmalar

Hər bir dövlət öz sosial və iqtisadi inkişafına nail olmaq üçün bütün mövcud maliyyə vasitələrindən səmərəli istifadə edir. Qısacası, maliyyə mexanizmi dövlətin öz maliyyə siyasətini həyata keçirmə vasitəsidir. Maliyyə mexanizmləri quruluş etibarilə mürəkkəbdir, müxtəlif maliyyə əlaqələrini ifadə edir. Dövlətlər iqtisadi qanunların onlara diktə etdiyi formada məhsulu, milli və pul gəlirlərini, fondları bölüşdürərkən maliyyə mexanizmlərindən istifadə edir ki, nəticə etibarilə özünün maliyyə ehtiyatlarını yaratmış olur. Maliyyə mexanizmlərinin bölgüsü müxtəlif meyarlar əsasında aparıla bilər. Dövlətin maliyyə mexanizmi büdcə və büdcədənkənar dövlət mexanizmi şəklində qruplaşdırıla bilərkən, digər tərəfdən ərazi üzrə də bölgü aparmaq mümkündür (Abdullayev S. Q., 2015: s.6).

Maliyyə bazarının infrastrukturunu anlamaq üçün maliyyə ekosisteminə geniş perspektivdən baxmaq lazımdır. Ödəniş sistemləri, mərkəzi tərəfdaşlar və ya mərkəz təhlükəsizlik depozitariləri və qiymətli kağızlar hesablaşma sistemləri maliyyə mexanizmlərinin mübadiləsində mühüm rol oynayır. Hansı ki, bu maliyyə mexanizmləri iqtisadiyyatın maliyyələşdirilməsini dəstəkləyir. Maliyyə bazarı maliyyəyə ehtiyacı olan iqtisadi agent ilə, maliyyəni təmin edən iqtisadi agenti bir araya gətirə bilir. Bu həmçinin maliyyə riskini bütün bazar iştirakçıları arasında təkrar bölməklə onu idarə etməyə kömək edir. Maliyyə resurslarını bölməyə köməklik göstərən maliyyə sistemi eyni zamanda risk və mənfəətlilik bölgüsünə icazə verir.

Maliyyə mexanizmlərinin elementlərini aşağıdakı formada qruplaşdıra bilərik:

-Funksionallığına görə: müəssisə və təsərrüfat təşkilatlarının, sığorta və dövlətin maliyyə mexanizmi;

-Unitar idarəetmə formasında olan dövlətlərin büdcə quruculuğuna görə: Dövlət nəzdindəki muxtar vilayətlərin və ya yerli hakimiyyət orqanlarının maliyyə mexanizmi, dövlətin maliyyə mexanizmi (Ataşov B.X., Novruzov N. A. və İbrahimov E.Ə., 2014: s.119).

Maliyyə mexanizmlərinin hər birinin fəaliyyət sahəsi fərqli olsa da, onlar vahidin parçası kimi çıxış edirlər. Bütün maliyyə mexanizmləri bir-biri ilə qarşılıqlı əlaqədədir. Maliyyə mexanizmləri bir-biri ilə nə qədər çox sıx əlaqədə olarsa, o qədər effektiv nəticə əldə etmək mümkündür (Gülməmmədova İ.H., 2015: s.20).

Maliyyə mexanizmlərinin təşkil edilməsi elementləri maliyyə münasibətlərinin təşkil edilməsi metod, forma və növlərinə ayrılır.

Maliyyə mexanizmin tətbiqi hüquqi tənzimləmə, yəni dövlət tərəfindən maliyyə işlərinin həyata keçirilməsi üçün hüquqi normativ aktların hər birinin qəbul olunması, planlaşdırma və idarəetmə ilə baş tutur. Araşdırdıqda görürük ki, maliyyə mexanizmləri anlayışı genişdir. Müxtəlif xarakterli maliyyə alətlərini əhatə edir. Ümumiyyətlə, maliyyə mexanizmlərini maliyyə resurslarının təsisatçı tərəfindən onlara ehtiyacı olan təşkilatlara təqdimetmə yolları kimi müəyyən edə bilərik ki, bu da kapitalın bərpası, gözlənilən gəlirlilik, mülkiyyət hüquqları və s. baxımından fərqli təsirləri ola bilər. Bu təsirlərə görə bəzi mexanizmlər idarəetmə, mülkiyyət strukturu, fəaliyyət strukturu və s. baxımdan fərqli xüsusiyyətlərə malik qurumlara ya az, ya da çox uyğun ola bilər. Mexanizmlərdən bəziləri Sosial və həmrəylik iqtisadiyyatı qurumları üçün uyğundur, bəziləri isə bütün müəssisələrə uyğun gələ bilir. Maliyyə mexanizmlərini 6 geniş kateqoriyada qruplaşdırmaq olar. Sosial baza, idarəetmə, qrantlar, maliyyə , kapital və qarışıq (Namazova N.V., 2012: s.24).

Birinci qrup olan sosial bazanın əsas kateqoriyası *Sosial bazanın özünü maliyyələşdirmə mexanizmləridir*. Özünü maliyyələşdirmə mexanizmlərinə müəsisənin maliyyələşdirilməsini təmin etmək üçün öz kapitalından istifadə aktı və

öz təcrübəsi daxildir. Bu müəssisəyə kənar təsirdən ayrı olaraq nəzarəti saxlamağa, borc olmadan böyüməyə imkan verir. Bununla belə, biznesi genişləndirmək imkanları kapital çatışmazlığı ilə məhdudlaşdırıla bilər. Bu qrupun özü də 2 altkateqoriyaya bölünür**:**

- **Üzvlər tərəfindən olan kapital qoyuluşu-** Bu sahibinin biznesdəki payını göstərən pay hesabıdır. Başqa sözlə , bu hesab şirkət aktivlərinin hansı hissəsinin kreditorlar əvəzinə üzvlərə aid olduğunu göstərir. Sosial və həmrəy iqtisadiyyatlı subyektlərdə çox zaman bütün üzvlər eyni miqdarda kapital qoyuluşu edir. Çünki bölüşdürülməmə məhdudiyyətləri səhmlərin yığılmasına stimul vermir.
- **Sosial kredit**- Bu altkateqoriya**,** adətən, korporativlər üçün ödənilməli olan kapital üzvlərinin töhfəsinə əsaslanan, əsasən, orta və qısamüddətli faiz dərəcələrinin əlavə edilməsi ilə baş tutan maliyyələşdirmə formasıdır.

İkinci qrup olan *idarəetmə (artıqlar) və aktivlər* resursların idarə edilməsi, təşkilatın resurslarının səmərəli və effektiv inkişafıdır. Bu cür resurslara maliyyə resursları, inventar, insan əməyi, istehsal resursları, informasiya texnologiyaları və ya təbii ehtiyatlar daxil ola bilər. Bu qrupun altkateqoriyaları:

- **Aktivlərdən əldə edilən gəlirlər** uzunmüddətli aktivlər satıldıqda əldə edilən gəlirlər adlanır. Əgər gəlirin məbləği satış zamanı uzunmüddətli aktivin balans dəyərindən çoxdursa, bu zaman gəlir əldə edilmiş olur, digər tərəfdən əgər azdırsa, bu zaman aradakı fərq zərər hesab olunur.
- **Balans aktivləri –**Balans aktivləri likvidliyə görə sıralanan hesablar və ya maddələr kimi siyahıya alınır. Likvidlik müəssisənin aktivi nağd pula çevirmə asanlığı deməkdir. Ən likvid aktiv pul və ya pul vəsaitləridir. Ondan sonra daha az likvid olan aktivlər qısamüddətli depozitlər və debitor borcları gəlir. Ən qeyri-likvid olanlar torpaq, tikili və avadanlıqlar kimi aktivlərdir.
- **Təxirə salınmış ümumi mənfəət** hissə-hissə satış yanaşmasından yaranır. Bu üsula əsasən , yalnız nağd ödənişin alındığı satışlar üzrə ümumi mənfəət tanınır. Alınmamış debitor borcları ilə bağlı bütün ümumi mənfəət balans

hesabatında debitor borcları ilə əvəzləşdirilməklə göstərilir və müştəri borcu ödəyənə qədər orada qalır. Ümumi mənfəətin təxirə salınmış məbləği debitor borcları hesabı ilə əvəzləşdirilməklə balans hesabatında əks etdirilir.

- **Fiziki aktivlər** sosial və həmrəy iqtisadiyyatlı təşkilatlara aid olan və sosial məqsədlərə nail olmaq üçün nəzərdə tutulmuş binaların və ya istifadəsiz sahələrin olması da maliyyələşdirmə sayıla bilər.

Növbəti qrup qrant bir məqsədə nail olmaq üçün və ya fəaliyyəti stimullaşdırmaq üçün bir qurum ( adətən, şirkət, fond və ya dövlət) tərəfindən digərinə çox vaxt fiziki şəxsə və ya şirkətə verilən bir mükafatdır, adətən, maliyyədir. Qrantlar ,əsasən, əksər şərtlərdə geri qaytarılması lazım olmayan hədiyyələrdir. Bunlara təhsil kreditləri, tədqiqat pulları və səhm seçimləri daxil ola bilər. Bəzi qrantların , qrant alanın maliyyə mükafatına tam sahiblik etməsindən əvvəl bağlanma və ya hüquq vermə periodu adlanan gözləmə müddətləri var.

- **İanə-** İanə , xeyriyyəçilik, humanitar yardım və ya bir məqsəd üçün bir fərd və ya təşkilat tərəfindən qeyri-kommersiya təşkilatına, xeyriyyə təşkilatına və ya özəl fonda edilən hədiyyədir. Xeyriyyə ianələri, adətən, nağd pul şəklində olur, lakin onlar həm də daşınmaz əmlak, avtomobil, qiymətli kağızlar, geyimlər və digər aktivlər və xidmətlər formasında da ola bilər.

- **Vergi payı ianəsi-** Bu vergi ödəyicisinin birbaşa seçdiyi sosial əhəmiyyətli fəaliyyətləri həyata keçirən təşkilatlara dəstək olmaq üçün dövlətin ayırdığı gəlir vergisinin bir hissəsidir. Məsələn, İtaliyada hər bir vergi ödəyicisi öz effektiv vergilərinin 0.5%-ni istədiyi quruma verə bilər (Namazova N.V., 2012: s.25).

- **Donorun məsləhət verdiyi fond/ Qarşılıqlı fondlar-**Donorun tövsiyə etdiyi fond təşkilatlar ailələr və ya fərdlər adından xeyriyyə ianələrini idarə etmək məqsədi daşıyan ictimai xeyriyyə təşkilatlarında yaradılmış xeyriyyəçilik vasitəsidir. Donorun tövsiyə etdiyi fondda iştirak etmək üçün donor fondda hesab açır və nağd pul, qiymətli kağızlar və ya digər maliyyə alətlərini yerləşdirir. Mülkiyyət hüququndan imtina etsələr də, hesablarının necə investisiya edildiyi və

pulun xeyriyyə təşkilatlarına necə paylanması ilə bağlı məsləhət imtiyazlarını saxlayırlar.

- **Kütləvi maliyyələşdirmə ianəsi-** İanəyə əsaslanan kütlənin maliyyələşdirilməsi çoxlu sayda ianəçinin fərdi olaraq kiçik bir məbləğdə ianə verməsini xahiş edən bir layihə üçün pul əldə etməyin bir yoludur. Bunun müqabilində dəstəkçilər ianənin ölçüsü artdıqca nüfuzunu artıran əlamətdar mükafatlar ala bilərlər. Ən kiçik məbləğlər üçün isə maliyyə verən qarşılığında heç nə götürməyə bilər. O, həmçinin xeyriyyə məqsədləri üçün vəsait toplamaqda istifadə edilə bilər. Maliyyəçilər layihəyə görə heç bir hüquq və ya mülkiyyət əldə etmirlər (Yuri B.M., Nikolai S.S. və Nina V.N., 2018).
- **Vəqflər-** Bu qeyri-kommersiya təşkilatının hüquqi kateqoriyasıdır və ya digər təşkilatlara vəsait bağışlayacaq və onlara dəstək verəcək, ya da öz xeyriyyə məqsədləri üçün maliyyə mənbəyini təmin edəcəkdir. Vəqflərə fondları birləşdirən ictimai fondlar və adətən, bir fərd və ya ailə tərəfindən verilən özəl fondlar daxildir.
- **Risk xeyriyyəçiliyi-** Bu ənənəvi risk kapitalı maliyyələşdirməsinin prinsip və üsullarının xeyriyyəçilik səylərinin tətbiqidir.
- **Dövlət qurumlarından maliyyələşdirmə-** Dövlət maliyyəsi büdcə məhdudiyyətinə uyğun olaraq qeyri-kommersiya məqsədləri üçün resursların ayrılmasını nəzərdə tutur.
- **Çağırış qrantı-** Bu qrantlarda bir tərəf ( qrant verən), adətən, dövlət agentliyi, korporasiya, fond tərəfindən ,əsasən, qeyri-kommersiya təşkilatına və ya təhsil müəssisəsinə (qrant alan) çağırış tələblərinin yerinə yetirilməsindən sonra verilən vəsaitdir. Çağırış pulun ayrılmasından əvvəl əldə edilməli olan fəaliyyətlərə və ya nəticələrə aiddir. Tanınmış qurumun təsdiqi vasitəsilə qrantı alan təşkilata nəzarət etməklə qrantlar digər donorlara qrant alan tərəfə etibar etməyə imkan verə bilər. Çağırış diqqətdən kənar qalan mövcud problemin yeni həllini tələb edə bilər. Proqramın sertifikatlaşdırılmasından üzv iştirakına qədər əlavə tələblər müəyyən edilə bilər.

Maliyyə mexanizmlərinin əsas kateqoriyalarından biri də maliyyədir. Kredit və ya borc alətləri borc alanlara bu maliyyələşdirmənin (“əsas borc” kimi tanınır) qaytarılması müqabilində əvvəlcədən müəyyən edilmiş müddətlərə və ya faiz dərəcəsi şərtlərinə əsasən faizlə birlikdə maliyyə vəsaiti təqdim edir. Maliyyələşdirmə təminat tələb edə bilər.

- **Güzəştli/ çevik kreditlər-** Bu kredit formalarına faiz dərəcələrinin olmaması və ya aşağı olması, uzadılmış ödəniş cədvəlləri və kredit müddəti ərzində faiz dərəcələrinin dəyişdirilməsi kimi vacib xüsusiyyətlər daxildir. Dövlət sektoru, adətən, Sosial və həmrəy iqtisadiyyat kimi xüsusi bazarlara kredit verməkdə bu təchizatçıların rahatlığını və maliyyə savadlılığını artırmaq üçün maliyyə vəsitəçiləri vasitəsilə təqdim olunan bu maliyyələşdirmə yanaşmasından istifadə edir.

- **Borc fondları-** Bir neçə layihənin və ya şirkətin borcuna və ya kapitalına yığılmış investisiyaları ifadə edir. Borc fondlarının məqsədi kapitalı qorumaq və gəlir əldə etməkdir. Səhm fondlarının məqsədi kapital qazancı və ya dividentlər hesabına investisiya artımıdır. Həm borc, həm səhm fondları öz sərmayələrini daha da artırmaq üçün subfondlara investiya edə bilərlər.

- **Kütlənin maliyyələşdirilməsi və ya eynicinsli kreditlər verilməsi-** Eynicinsli kreditləşdirmə kimi də tanınan kütlə krediti, borc verənləri borc alanlarla birbaşa uyğunlaşdıran onlayn xidmətlər vasitəsilə pul borc vermə təcrübəsidir. Vasitəçi olmadan baş tutan kreditləşmənin bu forması, ümumiyyətlə, onlayn platformaya əsaslanaraq daha az əlavə xərclərlə işləyən və ənənəvi maliyyə institutlarına nisbətən daha ucuz xidmət göstərə bilər. Nəticədə kreditorlar bankların təklif etdiyi əmanət və investisiya məhsulları ilə müqayisədə daha yüksək gəlir əldə edə, borcalanlar isə daha aşağı faiz dərəcələri ilə pul götürə bilərlər. Bununla belə, borcalanların eynicinsli kredit veb səhifələrindən götürdüyü kreditləri ödəməmə riski var (https://www.britannica.com/topic/location-theory, 2022).

- **İstiqraz-** Bu borcalan tərəfindən borc verənə verilən borcu təsdiq edən sənəddir.

- **Sosial istiqraz qiymətli kağızları-** Sosial təsir təşəbbüsləri üçün resurslar toplamaq üçün bank institutları tərəfindən buraxılmış borcları (məsələn, istiqrazlar) təmsil edir. Onlar bazar gəlirliliyi təklif edir. Yerləşdirilmiş qiymətli kağızlardan gələn resurslarla bankın sosial innovasiyaya üstünlük verən təşəbbüsləri dəstəkləmək üçün ianə və ya rəqabətli şərtlərlə maliyyələşdirmə kimi pul məbləğləri təqdim etdiyini proqnozlaşdırır.
- **Hedcinq fondları-** bu fond akkreditə olunmuş və ya institutsional investorların kapitalını birləşdirən və çox vaxt mürəkkəb portfel qurulması ilə müxtəlif aktivlərə sərmayə qoyan investisiya fondudur. Hedcinq fondlarının məqsədi maliyyə riskli, lakin çox səmərəli investisiyalar vasitəsilə zamanla daimi gəlirlər əldə etməkdir. Hedcinq fondları adətən daha çox mürəkkəb investisiya alətlərindən və ya "short selling", törəmə alətlər, hedcinq və leveraj (leverage) kimi strategiyalardan istifadə edir (Samuel B.S. və başqaları, 2019).

Səhm kapitalı beşinci qrupa aid olub, şirkət və ya layihə üçün əməliyyatlarını genişləndirmək, digər maliyyə mənbələrinə çıxış əldə etmək və digər layihə (və ya şirkət) investorlarının, xüsusilə də kapital investorlarından əvvəl ödənilən borc investorlarının üzləşdiyi investisiya risklərini azaltmaq üçün mühüm kapital bazasını təmin edir. Aşağıdakı alt kateqoriyalara malikdir:

- **Birbaşa səhmdara investisiya-** Geri qaytarılma zəmanəti olmadan layihəyə birbaşa kapital töhfəsi; birbaşa kapital sərmayəsinin gəlirliliyi investisiya dövrü ərzində layihənin və ya şirkətin fəaliyyətindən asılı olacaq.
- **Pay fondları və ya yatırım fondları-** Bir neçə layihənin və ya şirkətin borcuna və ya kapitalına birləşdirilmiş investisiyalardır. Borc fondlarının məqsədi kapitalı qorumaq və gəlir əldə etməkdir. Səhm fondlarının məqsədi isə kapital qazancı və ya dividentlər hesabına investisiya artımıdır. Həm borc, həm də kapital fondları öz sərmayələrini artırmaq üçün subfondlara investisiya edə bilərlər. Qarşılıqlı fond və ya kollektiv fond pulu, əsasən, adi, yaxud imtiyazlı səhmlərə yatırır. Səhm fondları fondun investisiya məqsədindən asılı olaraq dəyişə bilər.

İnvestisiyaların geniş spektrda yayılması, diversifikasiyası investisiya qoyulan şirkət və ya sektor uğursuzluq yaşasa belə riski azaldır (Securities and Exchange Commission, 2013: s.6).

- **Kvazi-kapital-** borc xarakteri daşıyan, lakin kapitalın qaytarılmasının çevik formaları, korporativ nəticələrlə əlaqəli ödənişlər və ənənəvi borc qiymətli kağızlarına ( məsələn, istiqrazlar) aid subordinasiya ödənişləri kimi kapitalın tipik xüsusiyyətlərini özündə ehtiva edən hibrid maliyyə alətləri toplusudur.
- **Maliyyələşdirən üzvlər-** maliyyə töhfəsi ilə şirkətin yaradılmasına və ictimai fəaliyyətin həyata keçirilməsinə tərəfdar olan şəxs və ya hüquqi şəxslərdir. Səhmdar cəmiyyətin abunə olması halında maliyyələşdirən üzv mühüm əhəmiyyət kəsb edir. Maliyyələşdirmə üzvlərinin xüsusi kateqoriyaları bütün nizamnamə kapitalına abunə olan və şirkət yaradıldıqdan sonra abunə olunmuş səhmlərin müəyyən hissəsini yenidən satan banklar, xüsusi kredit təşkilatları və maliyyə şirkətləridir.
- **Səhmdar kütlənin maliyyələşdirilməsi-** Bu geniş investor qruplarına (“kütlə”) kapital müqabilində start-up şirkətləri və kiçik biznesləri maliyyələşdirməyə imkan verən mexanizmlərdir. İnvestorlar bir işə maliyyə ayırırlar və bu biznesin kiçik bir hissəsinə sahib olurlar. əgər biznes uğur qazanarsa, o zaman onun dəyəri həmin biznesdəki payın dəyəri ilə birlikdə yüksəlir. Bunun əksi də doğrudur.
- **Sosial risk kapitalı-** Bu elə maliyyə alətləridir ki, ənənəvi risk kapitalına oxşar meyarlar əsasında investisiya yatıran və əlavə edilmiş həmin investisiya meyarlarına təsir göstərir. Məsələn, hədəf şirkətlər ölçülə bilən və qəsdən sosial və ətraf mühitə təsir məqsədləri güdürlər. Sosial risk kapitalı əldə edilən maliyyə gəlirlərinin miqdarından asılı olaraq ya “əvvəlcə təsir” və ya “ilk olaraq maliyyə” ola bilər. Onlar əsasən və ya müstəsna olaraq ilkin mərhələdə olan şirkətlərin kapitalına sərmayə qoyan sosial təsir formalarının xüsusi kateqoriyası hesab edilə bilər.

➢ **Xəstə kapitalı və ya uzun müddətli kapital-** İnvestora sürətli qazanc gözləmədən biznesə maliyyə sərmayəsi qoymağa imkan verir. Bunun əvəzinə investor yolda daha əhəmiyyətli gəlirlərlə gözləyərək dərhal gəlirdən imtina etməyə hazırdır. Xəstə kapitalı kimi ənənəvi investisiya aləti sayıla bilsə də, ekoloji və sosial cəhətdən məsuliyyətli müəssisələrin yüksəlişi ilə yeni həyat qazanmışdır. O, həm kapital, həm də borc kredit zəmanətləri və ya digər maliyyə alətləri şəklində ola bilər və kapitalın qaytarılması üçün daha uzun müddətlik olması ilə xarakterizə olunur. Kapitalın mənbəyi investisiya kapitalı, xeyriyyəçilik kapitalı və ya hər ikisinin birləşməsi ola bilər. Xəstə kapitalı qrant deyil, onun əsas borcunu (çox vaxt bazar faizindən aşağı) qaytarmaq üçün nəzərdə tutulmuş investisiyadır. O, investorlara maliyyə gəlirlərini ölkədə maksimum dərəcədə artırmağa deyil, daha çox sosial təsirə nail olmağa çalışır. Həm mənfəət məqsədi daşımayan, həm də qeyri-kommersiya təşkilatları üçün mövcud olan kapital spektrında səbirli kapital ənənəvi risk kapitalı ilə ənənəvi xeyriyyəçilik arasında qalır.

Maliyyə mexanizmlərinin altıncı qrupu olaraq qarışıq alətlər qrupu göstərilir. Bu qrupa iki alt kateqoriya aiddir. Mezzanine maliyyəsi və hibrid kapital.

➢ **Mezzanine maliyyəsi-** adətən, ixtisaslaşmış maliyyə institutları tərəfindən təmin edilən maliyyə nə tam olaraq kapitaldır, nə də borcdur. O, müxtəlif formalarda ola bilər, təminatlı və ya təminatsız ola bilər. O, adətən, xalis borcdan daha yüksək gəlir dərəcəsi qazanır, lakin kapitaldan azdır. Əksinə kapitaldan az olsa da, təmiz borcdan daha yüksək risk daşıyır. O, tez-tez rəhbərliyin satın alınmasında, yəni şirkət və ya törəmə müəssisənin mövcud rəhbərlik tərəfindən alınmasında istifadə olunur.

➢ **Hibrid kapital-** iki və ya daha çox fərdi maliyyə alətini, məsələn qarant əlavə edilmiş istiqrazın birləşdirilməsi ilə formalaşan sintetik maliyyə alətidir. Hibrid kapital öz kapitalı ilə əvəz edilmiş borc formasıdır. Bu tip kapital həm borc, həm də kapital xüsusiyyətlərinə malikdir. Bu, imtiyazlı səhmlər kimi müxtəlif alətləri əhatə edir ki, onlar xalis kapitalı olmayan , lakin ənənəvi olaraq bankın

maliyyə gücünün əsas ölçüsü olan birinci dərəcəli kapital əmsalı ilə hesablaşmaq üçün kifayət qədər oxşar hesab olunur.

Maliyyə mexanizmlərinə yanaşmalardan bəhs edərkən sosial-iqtisadi inkişafda mühüm rol oynayan maliyyə mexanizmləri olan büdcə-pul-kredit, vergi, gömrük, subsidiya və s. qeyd olunması mütləqdir.

Maliyyə mexanizmlərinin əsas tərkib hissələrindən biri büdcə siyasətidir. Büdcə sisteminin əsas obyekti maliyyə siyasətinin effektiv təşkil olunmasıdır. Büdcə sisteminin əsas vəzifəsi planlama, koordinasiya, fəaliyyət analizi, motivasiya, iş perfomansının nəzarətinin analizidir (Veronica V.N. və başqaları, 2016: s.7729). Büdcə texnologiyası hədəfin müəyyənləşdirilməsi, informasiyanın toplanması, analizi və ümumiləşdirilməsi, formalaşdırma, dəyərləndirmə, düzəliş, bəyanat, büdcə tətbiqi, büdcə perfomansı hesabatı və s. özündə ehtiva edir. Hər ilin yekununda növbəti period üçün müəyyən hədəflər planlaşdırılır. Bu hədəflər doğrultusunda büdcə ayırmaları baş tutur. Dövlət daha çox büdcəni perspektivi olmasına rəğmən nisbətən zəif inkişaf etmiş region və sahələrə ayırır və mütəmadi olaraq ayrılmış vəsaitin istifadəsi ilə bağlı hesabat alaraq prosesə nəzarət edir.

Büdcə ilə bağlı əsas yanaşmalardan biri də rus iqtisadçı V.E. Xrutskiyə məxsusdur. Onun fikrinə əsasən büdcə tərtibatı maliyyə planlaşdırması, mühasibat uçotu və nəzarəti özündə birləşdirən çoxşaxəli yanaşmadır. Bu metodun dezavantajlarından biri bundan ibarətdir ki, büdcə obyektlərinin təklif olunan siyahısı idarəetmə qərarlarının qəbul edilməsinin etibarlılıq məqsədləri üçün qeyri-kafi hesab olunan gəlir və xərcləri məhdudlaşdırır.

Ölkənin sosial-iqtisadi inkişafının qan-damar sistemini təşkil edən vergi siyasəti obyektiv reallıqlar əsasında formalaşmalıdır (Gülməmmədova İ.H., 2015: s.21). Vergi dövlətin müxtəlif xidmətləri reallaşdırmaq üçün birbaşa və yaxud dolayı yolla hüquqi və ya fiziki şəxslərdən topladığı pul vəsaiti və ya rüsumdur (Securities and Exchange Commission, 2016: s.27).

Vergi şərtlərinin düzgün müəyyən edilməsi vacib nüanslardandır. Çünki dövlət büdcəsinin əsas gəliri toplanmış vergilərdən formalaşır. Bununla yanaşı, dövlət regional inkişafda müvəffəqiyyətli olmaq üçün vergi şərtlərini müəyyən edərkən regionun sosial-iqtisadi inkişaf səviyyəsini nəzərə alır. Belə ki, zəif inkişaf etmiş regionlarda fəaliyyət göstərən müəssisələrdə və ya sahibkarlıq obyektlərində vergi güzəştlərinin tətbiqi müşahidə olunur. Vergi güzəştləri 2 formada tətbiq olunur. Birinci halda vergidən tam azadolma və ya müvəqqəti azadolma və ya vergi dərəcələrinin azaldılması nəzərdə tutulur. İkinci halda isə vergi tutulan bazanın azaldılması hesabına baş verir (Gülməmmədova İ.H., 2015: s.21). Dünya təcrübəsində Fransa , Kanada , ABŞ kimi dövlətlərdə bu siyasətdən istifadə olunur. Bu siyasətin tətbiqi sahibkarlara stimul yaradaraq ya onları biznes sahəsinə atılmağa təşviq edir, ya da öz biznesindən vergiyə ayıracağı xərcləri başqa biznes sahəsinə və ya biznesi daha da təkmilləşdirə biləcəyi (məsələn, tədqiqat və inkişaf) istiqamətlərə yönləndirir.

Büdcə gəlirlərinin əsas tərkib hissələrindən biri də gömrük rüsumlarından gəlirlərdir və dövlət büdcəsinin daxil olmasında, hətta qoyulmuş tələbləri lazımından daha çox qarşılamaqda gömrük orqanlarının əhəmiyyətli rolu vardır. Ölkənin sosial-iqtisadi problemlərinin həll olunması üçün gömrük tarif tənzimlənməsinin səmərəli şəkildə tətbiqi çox vacibdir. Gömrük tarifi ölkə sərhədlərindən keçirilən mallara tətbiq edilən sistemləşdirilmiş formada gömrük rüsumu dərəcələrinin qeyd olunduğu məcmudur. Gömrük tarifinin iqtisadi tənzimləmə vasitəsi kimi 2 funksiyası mövcuddur:

***1.*** *Fiskal funksiya* dövlət büdcəsinin doldurulmasını nəzərdə tutur,

***2.*** *Proteksionist funksiya* hansısa bir məhsulun daxili istehsalını artıraraq ölkə bazarında idxal malların rəqabət qabiliyyətini azaldaraq yerli istehsalçılara stimul verir (Məmmədova N.İ., 2016: s.4). Belə ki, əgər idxal olunan məhsulun gömrük rüsumu yuxarı olarsa , bu zaman idxal mallara olan tələbat azalacaq və yerli

istehsalçılar bundan stimul alaraq daha çox həmin məhsuldan istehsal etməyə başlayacaqlar.

Bəzən isə gömrük tarif tənzimlənməsi xarici ticarətin dəstəklənməsi məqsədi güdür. Məsələn, 1934-cü ildən etibarən ABŞ-da xüsusi iqtisadi zonalar yaradıldı ki, bu ərazilərə idxal olunan mallar gömrük rüsumundan azad edilirdi. Bu da öz növbəsində çox məhsulun idxal olunmasına və xarici ticarətin inkişaf etməsinə zəmin yaradırdı (Gülməmmədova İ.H., 2015: s.41).

Maliyyə mexanizmlərindən danışarkən subsidiyalardan bəhs etməsək olmaz. Subsidiyalara müxtəlif təriflər verilmişdir. Amerikalı akademik, siyasi müşavir Karl Kayzenə görə ümumi analitik baxımdan subsidiya müəssisənin məhsuluna tələbin artması və ya bazar qüvvələrinin və ya istehlakçıların zövqlərində, istehsal üsullarında təbii dəyişikliklərinin nəticəsi olmayan məhsul istehsal etmək üçün çəkməli olduğu xərclərin azalması kimi deyil, daha çox subsidiya verən tərəfin(dövlət) qəsdli hərəkəti kimi müəyyən edilə bilər. Amerikalı diplomat və ABŞ-nin Çilidəki səfiri Ralf Dangin isə bildirirdi ki, subsidiyalar eyni şəkildə transfer ödənişləri kimi nəzərdən keçirilməlidir, çünki tərifinə görə onlar hökumətin qarşılığında heç bir məhsul , xidmət və ya aktiv almadığı halda ödəniş etməsini göstərir. Subsidiya alan şəxs bunu subsidiya qanunvericiliyində müəyyən edilmiş tələblərə, məsələn, silahlı qüvvələrin üzvü olması, satış üçün müəyyən mallar istehsal etməsi kimi tələblərə uyğun gəldiyi üçün edir. Qismən subsidiyalar vergiyə bənzəyir deyə bilərik.

Ümumiyyətlə, maliyyə mexanizmləri dövlətin və ya biznesin özünü maliyyələşdirmək üçün istifadə etdiyi vasitələrdir. Hansı maliyyə mexanizminin tətbiq ediləcəyi dövlətin və ya müəssisənin məqsədindən, yaxud həmin anda hansının istifadə edilməsi daha zəruridirsə, onun tərcih edilməsindən asılıdır.

# II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA MALİYYƏ MEXANİZMLƏRİNİN TƏTBİQİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ

## 2.1.Azərbaycan regionlarının sosial-iqtisadi inkişafının müasir vəziyyətinin təhlili

Azərbaycan Respublikasının yenidən müstəqilliyini bərpa etdiyi müddət ərzində ümummilli liderimiz Heydər Əliyevin irəli sürdüyü strategiya nəticəsində ölkəmizdə siyasi və makroiqtisadi sabitlik əldə edilmiş, iqtisadiyyatın bütün sahələrində əsaslı islahatlar aparılmış, habelə dinamik sosial-iqtisadi inkişaf üçün möhkəm zəmin yaradılmışdır. İqtisadi inkişaf konsepsiyası prezidentimiz İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir.

İlham Əliyevin sərəncamı nəticəsində 2004-cü ildən başlayaraq regionların hərtərəfli inkişafına dair dövlət proqramları qəbul edilmişdir. Əsas məqsəd bu regionların sosial-iqtisadi inkişafının təmin olunmasının, emal sənayesinin, xidmət sahələrinin və digər infrastrukturun, qeyri-neft sahələrinin, o cümlədən turizmin inkişafı, əhalinin məşğulluğunun artırılması və yoxsulluğun aradan qaldırılmasıdır.

Regionların 2004-2008, 2008-2014, 2014-2018 və 2019-2023-cü illərdə olan sosial-iqtisadi inkişafında bu dövlət proqramları ölkə iqtisadiyyatının inkişafı, iqtisadi sabitliyin təmin edilməsi və sahibkarlığın inkişafında əlverişli şəraitin yaradılması baxımından çox mühüm əhəmiyyət kəsb etməkdədir (https://economy.gov.az/article/state-programs/21429, 2022). Yeni iş yerlərinin, o cümlədən yeni müəssisələrin yaradılmasında, iri infrastruktur layihələrinin həyata keçirilməsində, son nəticədə əhalinin rifahının daha da yaxşılaşdırılmasında, yoxsulluğun azaldılmasında regionların müstəsna rolu olmuşdur.

Bütün bunlarla yanaşı ölkəmizin iqtisadiyyatının digər sahələrini də əhatə edən bir neçə dövlət proqramları qəbul edilib: “Azərbaycan Respublikasında xalça

sənətinin qorunmasına, onun inkişaf etdirilməsinə aid 2018 – 2022-ci illərdə Dövlət Proqramı", "Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018 – 2025-ci illər üçün Dövlət Proqramı", "Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018 – 2025-ci illər üçün Dövlət Proqramı", "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018 – 2027-ci illər üçün Dövlət Proqramı" qəbul olunub. Düşünülür ki, həmin bu proqramların tətbiq olunması regionlarda böyük sosial-iqtisadi inkişafa mühüm təsir göstərəcək.

Prezident İlham Əliyevin sərəncamı nəticəsində təsdiq olunmuş "Azərbaycan Respublikası regionlarının 2014 – 2018-ci illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"-na uyğun olaraq kənd təsərrüfatı sahəsində mühüm inkişaf dinamikası müşahidə olunur. Həmin dövlət proqramına uyğun olaraq, ölkəmizdə kənd təsərrüfatında idarəetmənin şəffaflığının və səmərəliliyinin yüksəldilməsinin mühüm vasitəsi kimi, ölkədəki elektron hökumətin yayılması siyasətinə əsasən, ölkənin Avropa təcrübəsinə uyğunlaşdırılaraq "İnteqrasiya olunmuş nəzarət sistemi" (IACS) prinsipləri üzrə "Elektron kənd təsərrüfatı" əsaslı sistemin yaradılması istiqamətində çox qısa müddət ərzində böyükmiqyaslı işlər görülmüşdür.

Qəbul edilmiş dövlət proqramlarına əsasən, ölkənin regionlarında aqrar sahənin dinamik inkişafının təmin olunması məqsədilə ölkədəki texnika parkının yenilənməsi üçün tədbirlər planı həyata keçirilib və tədbirlər planı bu istiqamətdə müvafiq işlərin davam etdirilməsinin göstəricisidir. Beynəlxalq təcrübədən istifadə edilməklə Baş Dövlət Texniki Nəzarət Müfəttişliyinin bu sahə üzrə fəaliyyəti yenidən təşkil olunmuşdur. Vətəndaşlara göstərilən bu xidmətlərin daha şəffaf və asan həyata keçirilməsi üçün Dövlət Müfəttişliyinin tərkibində "Səyyar xidmət" qrupu yaradılmışdır.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" üzrə kənd təsərrüfatı məhsullarının istehsalının artırılması üçün dövlət büdcəsindən ayrılan pul vəsaiti bu sahədəki inkişafa yardım üçün istehsalçılara verilib. Ümumilikdə, 2017-ci ilin oktyabr ayı üzrə ölkədə 1341

kənd komissiyası tərəfindən 372 min istehsalçıya təxminən 1 milyon 259 min hektar əkin sahəsi, habelə çoxillik bitkilərin becərilməsi üçün istifadə olunan həm yanacaq və motor yağı, həm də buğda və çəltik əkini üçün 68422,0 min manat həcmində yardım edilmişdir.

Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsi vəsaiti hesabına mineral gübrələrin satışına tətbiq edilən güzəştlər, həmçinin istifadə olunan gübrələrin daha da artırılması nəticəsində həmin bu gübrələrdən istifadə səviyyəsini xeyli artırıb.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq aqrokimya laboratoriyalarının fəaliyyətlərinin yenidən təşkilinə ciddi diqqət yetirilib. Ölkə ərazisinin torpağının, suyunun və gübrələrinin təhlillərinin həyata keçirilməsi, o cümlədən ağır metallarla çirklənmə səviyyəsinin bu ərazilərdə müəyyən edilməsi üçün 11 regional aqrokimya laboratoriyaları müasir standartlara uyğun olaraq yenidən qurulub və müasir avadanlıqlarla təmin edilmişdir. Bu laboratoriyaların hər birinin müvafiq tələblərə uyğun biliklərə və bacarıqlara sahib olan işçilərlə komplektləşdirilməsi başa çatdırılıb, xarici ekspertləri cəlb etməklə yerlərdə təlimlərin təşkil olunması, eləcə də bu işçilərin xaricdə kurslar keçmələri istiqamətində tədbirlər aparılmışdır. Dövlət Fitosanitar Nəzarəti Xidməti regional aqrokimya laboratoriyaları üçün kadrların şəffaf və müsabiqə yolu ilə seçimlərini təşkil etməkdədir.

Dövlət proqramına əsaslanaraq Dövlət Baytarlıq Nəzarəti Xidmətinin həm maddi, həm texniki bazasının möhkəmləndirilməsinə diqqət yetirilib. Ona görə də 2017-ci ildə kənd təsərrüfatı heyvanlarının arasında epizootik plan əsasında aparılan profilaktik peyvəndlər, diaqnostik müayinələr və baytarlıq tədbirləri nəticəsində bu heyvanların sağlamlığı və Azərbaycan Respublikasının epizootik sabitliyi qorunub. Təhlükəsiz və sağlam heyvandarlıq məhsullarının əhali tərəfindən istifadəsi üçün Respublika Baytarlıq laboratoriyasında heyvandarlıq məhsullarının təhlükəsizliyinin ekspertizası, eləcə də xəstəliklərin müayinəsi üçün yeni-yeni

şöbələr yaradılmış, habelə müasir avadanlıqlar alınaraq istifadəyə verilmişdir (Məmmədova N., 2018).

Bu proqrama uyğun olaraq ölkənin regionlarında toxumçuluğun inkişafına xüsusi diqqət yetirilmişdir. Yüksək məhsuldarlıq isə elit toxumçuluğun daha çox inkişafı ilə bağlıdır. Toxum Nəzarəti Dövlət Xidmətinin və Bitki Sortlarının Qeydiyyatının tabeliyində olan 12 regional toxum sertifikatlaşdırma laboratoriyasının, o cümlədən Mərkəzi Toxum Sertifikatlaşdırma Laboratoriyasının ölkəmizdə yaradılması istiqamətində tədbirlər görülür. Demək olar ki, 9 regional toxum sertifikatlaşdırması laboratoriyasının tikintisi, maddi-texniki infrastrukturunun təminatı prosesi başa çatdırılmışdır. İlin sonuna kimi digər 3 regional toxum sertifikatlaşdırması laboratoriyasının da həm maddi, həm də texniki infrastrukturunun yaxşılaşdırılması nəzərə alınmışdır.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq strateji inkişaf və gəlir gətirən pambıqçılıq, meyvəçilik, tərəvəzçilik, baramaçılıq, tütünçülük, şərabçılıq və s. ölkəyə yeni iş yerləri və ümumi məhsul artımı gətirən sahələrdəndir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin ölkədəki davamlı dəstəyi sayəsində bu rayonlar ölkədə əvvəlki şöhrətini geri qaytara bilmişdir. Azərbaycan Respublikasında 2016-cı ildən bu sahələrin inkişafı üçün kompleks tədbirlər planı həyata keçirilmişdir. Prezidentin əsas vəzifəsi bir tərəfdən kənd yerlərində məşğulluq və gəlir yaratmaq, digər tərəfdən isə bu sahələrdə ölkənin potensialından istifadə etməklə ölkənin ixrac potensialını gücləndirməkdir. Eyni zamanda, bu tapşırığın həyata keçirilməsi üçün xüsusi dövlət dəstəyi göstərilmişdir.

Bütün bunlarla yanaşı olaraq qeyd edək ki, 2016-cı ilin aprel ayında Ali Baş Komandan olan İlham Əliyevin rəhbərliyi nəticəsində AR Ordusunun Cəbrayılın Cocuq Mərcanlı kəndinə uğurlu əks-həmləsi nəticəsində rayon erməni işğalçılarından azad edilib. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin tam nəzarətində olan bu torpaqlarda burada yaşayan mülki əhalinin öz doğma yurdlarına

qayıtması üçün genişmiqyaslı yenidənqurma işlərinin başlanması üçün şərait yaranmışdır. Dövlət başçısının tapşırığına əsasən Cocuq Mərcanlı kəndinin bərpası üçün görüləcək işlər çərçivəsində də müvafiq infrastrukturun yaradılması, habelə yeni iş yerlərinin təşkili istiqamətində tədbirlər həyata keçirilib.

Beləliklə, Prezidentimiz İlham Əliyevin sərəncamları ilə hazırlanan dövlət proqramlarının icrası ölkəmizdə aqrar sahənin dinamik inkişafında münbit zəmin yaratmışdır. Həmin sahədə köklü dəyişikliklər baş vermiş, mülkiyyət və yeni iqtisadi münasibətlər formalaşmışdır. Normativ baza daim inkişaf etdirilir. İdarəetmədə şəffaflığı və səmərəliliyi artırmaq üçün elektron formada kənd təsərrüfatı sistemindən istifadə edilir. Aqrar sahəyə dövlət dəstəyinin gücləndirilməsi, müvafiq olaraq institusional dəyişikliklər, bir neçə yeni çağırışlara uyğun olaraq strateji hədəflərin müəyyənləşdirilməsi sayəsində keyfiyyətcə yeni bir mərhələyə keçid başlanıb.

Xüsusilə qeyd etmək istərdim ki, AR müstəqilliyini bərpa etdikdən sonra, xüsusən 1993-cü ildən dinamik inkişaf prosesləri şəraitində dünyaya yeni dövlət modelini təqdim etməyə nail olub.

Dövlət proqramlarında nəzərdə tutulmuş yenidənqurma işləri turizm sahəsinə müsbət təsir edən amillərdəndir. Ümumiyyətlə, bu tədbirlər sahibkarlığın inkişafına, yeni mehmanxanaların açılmasına, mədəniyyət və istirahət obyektlərinin sayının artırılmasına şərait yaratmaqdadır. Bu da özlüyündə turistlərin yalnız paytaxta deyil, regionlara da səfər etməsinə şərait yaradır. Azərbaycan Respublikasında digər inkişaf etməmiş turizm sahələrinin, xüsusən də aqroturizmin inkişafına töhfə verilir. Kənd yerlərindəki insanların evlərini turistlər üçün kirayə verməsi, habelə onlara xidmət göstərməsi əhalinin maddi durumuna müsbət təsirlər göstərir. Ölkəmizə əlavə vəsaitlərin daxil olmasının ölkənin makroiqtisadiyyatında olduğu kimi əhalinin həyat səviyyəsinin artırılmasında da mühüm rol oynadığından turizmin inkişafı Azərbaycan Respublikasının iqtisadiyyatı üçün də faydalıdır. Ümumiyyətlə,

bu, Azərbaycan Respublikasının dünyada geniş şəkildə tanınmasına şərait yaradır, o cümlədən investisiya axınını şərtləndirir.

Bölgələrdə yenidənqurma araşdırmaları turizmin inkişafına mühüm təsir göstərmişdir. Regionlarda turizmin inkişafı qeyri-neft sektorunda əsas prioritetlərdən biri olub. Regionlarda turizm ehtiyatlarının, turizm istirahət mərkəzlərinin genişləndirilməsi, müasir standartlara uyğunlaşdırılması, o cümlədən turizmin inkişafı ilə bağlı olan layihələrin icrası günümüzdə də davam etdirilir.

Azərbaycan Respublikasının regionlarında bu sahənin ölkəmizdə inkişaf istiqamətlərindən biri kimi də turizm infrastrukturunun dünya üzrə beynəlxalq tələblər səviyyəsində qurulmasına yönəlmiş məqsədyönlü bir çox layihələrin həyata keçirilməsidir. Həmin sahədə layihələrin təşkili Azərbaycan Respublikasının bütün bölgələrində turizmin stimullaşdırılması və həmin sahəyə investisiyaların cəlb olunması məqsədilə müasir informasiya-kommunikasiya texnologiyalarından geniş istifadəyə zəmin yaradıb. Azərbaycan Respublikasının regionlarında və turizm bölgələrində müvafiq olaraq infrastrukturun yaradılması, o cümlədən turizmin müxtəlif növlərinin inkişafı, yeni turizm marşrutlarının yaradılması istiqamətlərində mühüm addımlar atılıb. Turizm sahəsində çalışan kadrların peşə hazırlığı normativinin yüksəldilməsi ilə regionlarda xidmət keyfiyyətinin daha da yüksəldilməsi istiqamətində müvafiq bir neçə tədbirlər həyata keçirilir.

Prezident İlham Əliyevin rəhbərliyi nəticəsində həyata keçirilmiş siyasət Azərbaycan Respublikasını dünyanın ən sürətli inkişaf edən dövlətlərindən birinə çevirib. Bu istiqamətdə əldə edilən uğurlar Azərbaycan Respublikasının beynəlxalq müstəvidə mövqeyini xeyli möhkəmləndirir. Bunun nəticəsidir ki, respublikamız regionun lider dövlətinə, dünyanın aparıcı dövlətlərindən birinə çevrilib. Bölgələrdə fəaliyyət göstərən sahibkarların bir çox xarici ölkələrə ixracı genişləndirilməsi istiqamətində mütəmadi olaraq tədbirlər həyata keçirilir. Bu sahə üzrə mühüm addımlardan biri də yerli istehsalçıların Azərbaycan Respublikasında xarici bazarlarda mövqelərinin gücləndirilməsi, onların maraqlarının müdafiəsinin

gücləndirilməsi üçün müvafiq tədbirlərin görülməsidir. Azərbaycan Respublikasında xarici ticarətin inkişafında infrastrukturun daha da təkmilləşdirilməsi və yaxşılaşdırılması üçün müvafiq tədbirlərin hər birinin həyata keçirilməsini təşkil etmək, dünya bazarlarına çıxış imkanlarını artırmaq məqsədilə ixracatçıların beynəlxalq sərgilərdə və yarmarkalarda iştirakını stimullaşdırmaq, ixracatda e-ticarət xidmətlərinin Azərbaycan Respublikasının iqtisadiyyatının xarici ticarətin geniş yayılması imkanlarını araşdırmaq və inkişaf etdirmək onların dünya ölkələrinə necə təqdim ediləcəyi baxımından əhəmiyyətlidir.

Belə ki, dövlət proqramı çərçivəsində həyata keçirilən bütün tədbirlərin Azərbaycan Respublikasını dünyada sabit və dayanıqlı inkişaf dinamikası olan, ən yüksək beynəlxalq iqtisadi meyarları ilə müəyyən edən qurumların reytinqlərində yüksək yer tutan ölkə kimi tanıdıb, dövlətə marağı xeyli artırıb. Bütün bu və digər fəaliyyətlərin nəticəsidir ki, ölkəmiz dünyanın siyasi-iqtisadi sferasında xüsusi bir mövqeyə sahibdir.

Azərbaycan Respublikası regionlarının inkişafı, regionlar arasında sosial-iqtisadi fərqlərin aradan qaldırılması və bu ərazilərin iqtisadi potensialından səmərəli və tam istifadə edilməsi istənilən bir dövlətin, o cümlədən də Respublikamızın iqtisadi inkişafının əsas prioritet istiqamətlərindən birinə çevrilmişdir. Bu kontekstdə regional iqtisadi siyasət Azərbaycan Respublikasının ümumi iqtisadi siyasətinin və strategiyasının ən mühüm tərkib hissələrindən biri olmalıdır. Bu, Azərbaycan Respublikasının kontekstində xüsusilə vacibdir.

AR regionlarının sosial-iqtisadi inkişafının təmin olunmasında maliyyə mexanizmlərinin və onun tərkib hissələrinin imkanları və rolu böyük əhəmiyyət kəsb edir. Bununla belə, bu vasitələrin seçilməsində onların effektivliyini əsaslandırmaq vacibdir. Buna görə də, bu alətlərin təsiri bazar amilləri ilə ciddi şəkildə məhdudlaşdırıla bilər, çünki bazar qüvvələri sosial-iqtisadi inkişaf səviyyələrində regional fərqləri azaltmır. Həmçinin bəzi hallarda seçilən alətlər qarşıya qoyulan məqsədlərə çatmağa imkan vermir və bunun nəticəsində də

cəmiyyət bir çox itkilərlə üzləşir. Bu səbəbdən də, regional siyasətin formalaşdırılması, habelə onun maliyyə mexanizminin müəyyən edilməsi ətraflı əsaslandırma tələb etməkdədir.

İqtisadi araşdırmalar göstərir ki, ölkəmizdə əvvəllər regional iqtisadi siyasətə və regional sosial-iqtisadi inkişafa lazımi diqqət yetirilməyib və regionlar ümumi inkişaf baxımından əhəmiyyətli dərəcədə fərqlənib. Lakin bir region sürətlə inkişaf edir, digəri yerində qalmamalıdır, iqtisadi və sosial inkişaf bütün respublikanın regionlarını əhatə etməli və bunun həm iqtisadi, həm də inzibati rıçaqlardan genişhəcmli istifadə olunmalı, regional inkişaf dövlət səviyyəsində də tənzimlənməlidir.

2004-cü ildən AR-da regionların sosial-iqtisadi inkişafı nəticəsində aparılan dövlət proqramları da ölkəmizin inkişafında mühüm rol oynamışdır. Bu proqramların icra edilməsi Respublikamızın hərtərəfli inkişafını təmin etmiş, paytaxtla regionlar arasında fərqi azaltmışdır. Təsadüfi deyil ki, regional proqramların qəbulundan sonra bu ərazilərdə onlarla sayda kiçik, orta və iri həcmli müəssisələr fəaliyyətə başlayıb, turizm inkişaf edib, aqrar sahədə məhsul istehsalı dəfələrlə artıb və müasir infrastruktur yaradılıb.

Dövlət başçısı AR regionlarının dövlət proqramlarının icrasını daim nəzarətdə saxlamış, ölkənin ən ucqar ərazilərində də yaşayan sakinlərin gündəlik qayğısı və həyatı ilə daim maraqlanmışdır. Prezident İlham Əliyevin regionlara ardıcıl səfərləri əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, yeni iş yerlərinin açılması, regional proqramların icrasının sürətləndirilməsi işlərinə güclü təkan vermişdir.

Eyni zamanda, regional proqramlar yerlərdə vətəndaş cəmiyyəti quruculuğunun ən mühüm elementlərindən birinə çevrilmişdir. Çünki rayonların mərkəzlərində, qəsəbələrində, ucqar kəndlərində yaşayan sakinlər hər zaman dövlət qayğısı, həmçinin ölkə rəhbərinin diqqətini hiss etmişlər. Belə vəhdətin mövcudluğu bu dövlət proqramlarının əhəmiyyətini artırmış, həmin sənədlərdə nəzərdə tutulan tədbirlərin uğurla həyata keçirilməsinə diqqəti gücləndirmişdir.

Aparılan geniş tədqiqatlar da göstərir ki, regional dövlət proqramları Azərbaycan Respublikasının iqtisadiyyatında mühüm prioritet istiqamətə çevrilmiş əsas inkişaf sahələrinin həyata keçirilməsini sürətləndirir. Bu mühüm cəhətlərdən biri də iqtisadiyyatın diversifikasiyasıdır. Regional proqramlar vasitəsi ilə Azərbaycan Respublikasının regionlarında iqtisadiyyatın müxtəlif sahələri geniş şəkildə inkişaf etdirilir, müxtəlif məhsulların dünya bazarlarına çıxarılması təmin olunur, nəticə olaraq da qeyri-neft sektorunun güclənməsinə səbəb olur.

“Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icra edilməsi üzrə birinci il ölkənin tarixində ən uğurlu illərdən biri olmuşdur. Nəzərdə tutulan sosial infrastruktur layihələri ən yüksək səviyyədə həyata keçirilib və gələcək inkişaf üçün möhkəm zəmin yaratmaqdadır.

Bu Dövlət Proqramı üzrə 2020-ci ildə ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən istifadəsi, yaşıllaşdırılması və meşəsalması işlərinin hər biri uğurla həyata keçirilib. Belə ki, bu hesabat ili üzrə proqram çərçivəsində Azərbaycan Respublikası regionlarında meşə fondu sahələri üzrə 875 mindən çox ağac əkilib, 10 min hektardan çox sahədə meşəbərpa və meşəsalma işləri aparılıb. Qeyri-meşə üzrə fond torpaqlarının salınması, onların bərpası və yaşıllaşdırılması istiqamətində müvafiq işlər aparılıb, 380 mindən çox fərqli növ ağac və kollar əkilib ki, bu göstərici regionlarda 197 mindən çox olub, habelə bütün ərazilər damcılı suvarma sistemləri ilə təchiz edilib. Həmin hesabat dövründə su bioloji ehtiyatlarının artırılması istiqamətində də işlər davam etdirilmişdir, o cümlədən 6 milyon ədəd balıq körpəsi yetişdirilərək su obyektlərinə buraxılıb.

Dünyanın müxtəlif yerlərində gərginlik səviyyəsinin olmasına baxmayaraq, ölkəmizdə uzun illərdir ki, siyasi sabitlik hökm sürür. Belə şəraitin fonunda da ölkə iqtisadiyyatı dinamik formada inkişaf edir. Bunu statistikadan da aydın görə bilərik. Bundan başqa, dördüncü regional dövlət proqramı nəticəsində birinci il üzrə qeyri-neft sənayesinin ölkədə sürətli inkişafı nəticəsində təxminən 98 minə yaxın yeni-

yeni iş yerləri açılmışdır. Nəticədə də, məşğulluğun artırılmasına və işsizliyin azalmasında müsbət təsir göstərmişdir.

2019-cu ildə ölkə iqtisadiyyatına ümumi 13 milyard dollardan çox investisiya qoyuluşu onu göstərir ki, ölkə iqtisadiyyatı həm xarici, həm də yerli investorlar üçün cəlbedicidir. Bu dövr ərzində burdakı makroiqtisadi vəziyyət sabit qalmışdır. İnflyasiya 2,5%, gəlirlər isə 7,4% artmışdır. Bu ildə valyuta ehtiyatları 6,40 milyard dollar artaraq, ilin sonunda rekord səviyyəyə - 51 milyard dollara çatmışdır.

Sadalanan bu uğurların əldə olunmasına siyasi-iqtisadi müstəvidə aparılan bir çox islahatlar öz müsbət təsirlərini göstərib, nəticədə də sosial sahədə mühüm yeniliklərə əsaslı zəmin qoymuşdur.

Dövlət başçısı hər zaman sosial problemlərin həllinə böyük önəm verib. Təkcə 2019-cu il ərzində ölkədə 4,2 milyon nəfəri əhatə etmiş sosial paketin icrası ilə ölkə əhalisinin rifah halı xeyli yaxşılaşmışdır. Minimum əmək haqqı iki dəfə, bəzi sosial müavinətlər 50 faizlə, minimum pensiya 70 faizlə, bəziləri isə iki qat artırılıb. Rəhbərimiz İlham Əliyevin 2020-ci il üzrə fevralın 6-da imzaladığı "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" sərəncamı da pensiyaçıların sosial müdafiəsinin daha çox gücləndirilməsi istiqamətində atılan növbəti vacib addım kimi rəğbətlə qarşılanmışdır.

Xatırlatmaq lazımdır ki, bu sərəncamla bir neçə növ əmək pensiyalarının hər birinin sığorta hissəsi indeksləşdirilərək təxminən 16,6 faiz artırılmışdır. Prezident İlham Əliyevin tapşırığı nəticəsində 2019-cu il sosial ödənişlərin artırılmasında inqilabi addımların atılması üçün gerçəkləşdirən uğurlu sosial islahatlar 2020-ci il üzrə də davam etdirildi. Bunlar ölkədə yaşayan əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində olan işlərin analoqu olmadığının, habelə ölkə rəhbərinin apardığı siyasətlərin əsasında ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması məsələsinin ilk sırada dayandığının göstəricisidir.

İl ərzində infrastrukturun yaxşılaşdırılması istiqamətində əsaslı işlər görülmüşdür. Ölkədə 84 məktəb, 60 səhiyyə müəssisəsi tikilib, habelə təmir edilib,

əlavə olaraq 800 meqavat elektrik enerjisi istehsal edilib. Bunun da 400 meqavatı yeni istifadəyə verilmiş “Şimal-2” stansiyasının hesabına, təxminən 400 meqavat isə itirilmiş gücün bərpası hesabına əldə edilib. Ölkəmiz artıq elektrik enerjisi istehsalı sahəsində enerji ixracatçısına çevrilmişdir. Bu sahədə vacib məsələlərdən biri kimi əhalinin qazla təminatını göstərmək olar. Azərbaycan Respublikasında 2003-cü ildə qazlaşdırma səviyyəsi 51 faiz olduğu halda, hazırda bu rəqəm təxminən 96 faizə çatmışdır. Bu, dünyada ən yüksək göstəricilərindən biridir.

2019-cu il ölkədə təxminən 1300 kilometr avtomobil yolu çəkilmişdir ki, bu da nəzərdə tutulduğundan 300 kilometr çox olmuşdur. Dünya ekspertlərinin hesablamalarına görə, ölkəmiz avtomobil yolların keyfiyyətinə görə dünyada 27-ci yerdədir. Bu göstəriciyə görə Azərbaycan Respublikası hətta bir çox inkişaf etmiş ölkələri də qabaqlayır.

Son dövrlərdə müasir texnologiyaların və qabaqcıl təcrübələrin tətbiqi sayəsində sənayeləşmə sürətlə inkişaf etmiş, ölkədə maşınqayırma, metallurgiya, kimya, tikinti materialları, yeyinti və digər ənənəvi sahələrin genişlənməsi ilə yeni bir çox sənaye sahələri yaradılmış və özünü inkişaf etdirmişdir. Bütün bunlar, təbii ki, dövlət başçısının uğurlu olan iqtisadi strategiyaları nəticəsində baş verib. Bunu yalnız dövlət başçısının iştirakı ilə 2019-cu ildə bu istiqamətdə həyata keçirilən tədbirlərə qısa nəzər saldıqda aydın görmək mümkündür. Belə ki, 2019-cu il Prezident İlham Əliyevin iştirakı ilə Sumqayıt Kimya Sənaye Parkında inşa edilən “SOCAR karbamid”, Pirallahı Sənaye Parkın ərazisində “Diamed” şpris istehsalı üzrə zavodlar, yüksək sıxlıqlı polietilen və Bakı ərazisində “Şimal-2” elektrik stansiyası istifadə üçün verilmişdir.

2019-cu ilin ən mühüm hadisələrindən biri Trans-Anadolu Boru Kəmərinin (TANAP) istifadəyə verilməsi oldu. Prezident İlham Əliyev bu dövrün yekunları ilə bağlı müşavirədə bildirib ki, TANAP təbii qaz kəməri 2019-cu ildə istifadəyə verilib və bu tarixi nailiyyət Cənub Qaz Dəhlizinin mühüm hissəsidir. 2012-ci ildə imzalanmış TANAP sazişindən sonra isə “Şahdəniz-2” adlı qaz-kondensat yatağının

işlənməsinə qarşı sanksiyalar tətbiq edilib. İlham Əliyevin sözlərinə görə, əgər TANAP imzalanmasaydı, "Şahdəniz-2"nin işlənməsinə başlanmazdı və biz bu gün əlavə qazın həcmini almazdıq. Bu, böyük problemlər yaranmasına səbəb olardı, ona görə də TANAP sazişinin imzalanması, bu qaz kəmərinin vaxtından da əvvəl istifadəyə verilməsi ,həqiqətən, böyük tarixi nailiyyətdir. Cənub Qaz Dəhlizinin digər dördüncü layihəsi də uğurla həyata keçirilir. TAP layihəsinin icra səviyyəsi 2019-cu ildə 90 faizi ötmüşdü (https://president.az/az/articles/view/35054, 2019). Trans-Adriatik qaz kəməri isə 2021-ci il yanvarın 1-dən fəaliyyətə başladı (https://president.az/az/articles/view/49872/print, 2021).

Xatırlatmaq lazımdır ki, TANAP layihəsi "Şahdəniz"dən və Azərbaycan Respublikasının digər yataqlarından hasil edilən təbii qazın Avropa bazarlarına nəqli potensialına görə böyük siyasi və iqtisadi əhəmiyyətə malikdir.

Azərbaycan Respublikasında aparılan bu islahatlar, həyata keçirilən tədbirlər ölkə vətəndaşları və beynəlxalq ictimaiyyət tərəfindən böyük diqqətlə izlənilir və müxtəlif tədqiqatçılar tərəfindən yüksək qiymətləndirilir. Atılan addımların nəticəsidir ki, ölkəmiz "Doing Business - 2019" hesabatında ən islahatçı 10 dövlət sırasına daxil edilib. Həmçinin, Azərbaycan Respublikası dünyanın ən islahatçı ölkəsi elan edilib. Bu hesabatda ölkəmiz 2017-ci illə müqayisə edildikdə 32 pillə irəliləyərək 25-ci yerdə qərarlaşıb (190 ölkə arasında), dünyanın bir çox ölkəsini geridə qoyaraq Müstəqil Dövlətlər Birliyinə (MDB) daxil olan ölkələr arasında lider olub (Ələkbərov, 2020).

İqtisadiyyatın dinamik inkişafı üçün regionların iqtisadi artımdakı rolu davamlı və şaxələndirilmiş olmalıdır. Milli iqtisadiyyat qlobal iqtisadiyyatın tərkib hissəsi olduğu üçün ona xarici mühit də təsir edə bilər. Ona görə də uzunmüddətli perspektivdə iqtisadiyyatın mühüm daxili və xarici təsirlərə qarşı müqavimətini gücləndirmək və diversifikasiya etmək, makroiqtisadi sabitliyi daha da gücləndirmək lazımdır.

Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"inə uyğun olaraq qarşıdakı on ildə həyata keçiriləcək milli prioritetlər ölkənin sosial-iqtisadi inkişafı ilə yeni hədəflər müəyyən edir. Qeyri-neft sektorunun inkişafı sosial-iqtisadi inkişafın səmərəliliyi, effektivliyi, dövlət büdcəsinin gəlirlərinin yüksəldilməsi və həmin gəlirlərin müxtəlif mənbələrdən formalaşması baxımından vacib əhəmiyyət kəsb edir. Aparılan iqtisadi siyasət və həmin davamlı islahatlar nəticəsində ölkə iqtisadiyyatının şaxələndirilməsi, habelə qeyri-neft sektorunun inkişafı nisbətən sürətlənib.

Bölgələrdə iqtisadi fəallıq və vergi daxilolmaları artmışdır. Hazırda ölkənin regionlarında qeyri-neft sənayesinin inkişafının güclü iqtisadi potensialı mövcuddur, həmçinin bu məsələ diqqətdə saxlanılır. Ölkə regionlarının, həmçinin kənd yerlərinin bu sosial-iqtisadi inkişafı, infrastrukturun və sosial xidmətlərin inkişaf etdirilməsi, regionlarda yaşayan əhalinin məşğulluğunun, habelə maddi rifahının artırılması sahəsində işləri davam etdirmək üçün "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" qəbul edilmişdir.

Dövlət Proqramının uğurla icrası vergi daxilolmalarının artmasına da müsbət təsir göstərmişdir. Dövlət başçısının tapşırıqlarına uyğun olaraq vergi orqanları iqtisadiyyatın qeyri-neft sektorunun inkişafının stimullaşdırılması istiqamətində tədbirlər həyata keçirir. Belə ki, gəlirlərin və uçotun şəffaflığının artırılması, biznes mühitinin nisbətən yaxşılaşdırılması istiqamətində həyata keçirilən sistemli tədbirlər nəticəsində vergi daxilolmaları artmışdır.

2020-ci ildə regionlardan vergi daxilolmaları 2018-ci illə müqayisədə 23,2% artmışdır. Eyni zamanda, mərkəzi büdcədən heç bir dəstək almadan yerli mənbələrdən gəlir təmin edən rayonların sayı isə 41-ə çatıb. Ümumiyyətlə, regionların sosial-iqtisadi inkişafı bu Dövlət Proqramları qəbul ediləndən sonra 2003-cü illə müqayisədə 2020-ci ildə təxminən 23,2 dəfə artmışdır (https://report.az/maliyye-xeberleri/son-17-ilde-azerbaycanda-regionlardan-vergi-yigimlari-23-defeden-cox-artib/, 2021). 2021-ci il Regionlar üzrə daxilolmalar yanvar-oktyabr

aylarındakı məlumatlara əsasən 788,8 milyon manat olub, yəni proqnozun 114,6 faizi icra olunub. 2020-ci illə müqayisədə regionlar üzrə daxilolmalar təxminən 8,3 faiz artmışdır (https://www.taxes.gov.az/az/post/1655, 2021).

2020-ci ilin 6 ayında rayon vergi orqanları tərəfindən dövlət büdcəsinə smeta üzrə 388,4 milyon manat daxilolma proqnozlaşdırılmışdır, nəticədə də 468,6 milyon manat pul vəsaiti daxil olmuş, proqnozdan 74,2 milyon manat (119,1 faiz) artıqlaması ilə smeta tapşırıqları uğurla yerinə yetirilmişdir. Dövlət büdcəsinə də 22,1 milyon manat, yəni 2019-cu ilin dövrü ilə müqayisədə 6,7 faiz çox pul vəsaiti daxil olmuşdur.

AR-da qeyri-neft sektorunun inkişafında kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları, turizm və emal sənayesi əsas prioritet sahələrdir. Kənd təsərrüfatına subsidiyalar və vergi güzəştləri, texnikaların və gübrələrin güzəştli təchizatı, investisiyaların və ixracın stimullaşdırılması, həmçinin digər dövlət dəstəyi mexanizmləri Azərbaycan Respublikasının regionlarının inkişafının sürətləndirilməsində vacib rol oynayır.

2021-ci ilin birinci rübündə əmək bazarının leqallaşdırılması, həmçinin yeni iş yerlərinin açılması hesabına qeyri-dövlət sektorunda işləyən işçi sayı 2020-ci illə müqayisədə 13 faiz artıb. Həmin dövrün 6 ayı ərzində 2020-ci il üzrə müvafiq olaraq müqayisə etdikdə bu sektor üzrə ölkə büdcəsinə 36,1 faiz yönləndirilmiş, işsizlikdən sığorta üzrə vəsait 51 faiz artmışdır.

Hesabat dövründə regionlar üzrə iqtisadi aktivlik müşahidə olunduğu halda, vergi ödəyiciləri tərəfindən təmin edilən dövriyyənin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə təxminən 21,6 faiz artmışdır. Bundan başqa, iyulun 1-nə aid regionlar üzrə aktiv olan ƏDV ödəyicilərinin sayı ilin əvvəlindəki ilə müqayisədə 13,6 faiz, hesabat dövründə qeydiyyata alınmış malların sayı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə isə 15,5 faiz artıb.

Bölgələrdə iqtisadi fəaliyyətin və ticarət müəssisələrinin gəlirlərinin artması büdcə gəlirlərinin regional şaxələndirilməsinə müsbət təsir göstərir. Əlavə olaraq, regionların maliyyə imkanlarının yaxşılaşdırılmasına zəmin yaradır.

Prezidentimiz İlham Əliyev çıxışları zamanı həmişə qeyri-neft sektorundakı inkişaf perspektivlərindən danışır və onun əhəmiyyətini vurğulayır. Ölkə liderimizin də qeyd etdiyi kimi, bizim iqtisadi inkişafımız qeyri-neft sektorunun hesabına davam etdirilməlidir. Bu məqsədlə son illər böyük işlər görülmüş, sənaye zonaları yaradılmış, burada xüsusi olaraq vergi rejimi tətbiq edilmişdir. Regionlarda aqroparklar yaradıldığı və orada da məhsuldarlıq yüksək olduğu da cənab prezidentimiz tərəfdən vurğulanmışdır (https://president.az/az/articles/view/34549/print, 2019).

Dünya təcrübəsi göstərmişdir ki, ixracın artırılması, ölkə iqtisadiyyatında rəqabət qabiliyyətliliyinin artırılması, idxalı əvəz edən məhsulların istehsalı, regionlarda əhalinin məşğulluğunun təmin edilməsi, investisiyaların, habelə texnologiyaların cəlb edilməsi və modernləşmə kimi prioritetlərin həyata keçirilməsində aqroparkların və sənaye parklarının yaradılması xüsusi əhəmiyyət kəsb etməkdədir. Həm də aqroparkların yaradılması kənd əhalisinin sosial vəziyyətinin daha çox yaxşılaşmasına xidmət göstərir. Aqroparklarda və sənaye zonalarında fəaliyyət göstərən sahibkarların fəaliyyətlərinin stimullaşdırılması üçün genişmiqyaslı olan vergi güzəştləri mövcuddur. Burada sahibkarlığın inkişafı regionların vergi potensialını artırdığı kimi, tətbiq edilən vergi güzəştləri də sahibkarlığın inkişafına təkan verir, nəticədə də iqtisadi riskləri minimuma endirir.

Vergi orqanları maliyyə məqsədlərinə xidmət etməklə yanaşı, bu regionların iqtisadi potensialının reallaşdırılmasında, iqtisadi artıma nail olunmasında, qeyri-neft sektorunun payının artırılmasında fəal iştirak edirlər. İqtisadiyyatın şaxələndirilməsi siyasətində prioritet istiqamətlərdən biri olan regional inkişaf strategiyası bu tendensiyanın davam etdirilməsində son dərəcə vacibdir (https://www.taxes.gov.az/az/post/1518, 2021).

Digər tərəfdən, Bakı Qarabağın yenidən qurulmasını sürətləndirməklə qələbənin nəticələrini möhkəmləndirmək üçün bütün imkanlarını səfərbər edib, Şuşada və hazırda başa çatdırılmış bir neçə “ağıllı kənd”-də köçürmə prosesinə başlamağa ümid edir. Hər bir yeni qəsəbə, hər bir yeni əkilən torpaq sahəsi xalqın gözündə hakimiyyəti gücləndirəcək.

Vergi və gömrük sistemlərində islahatların davam etdirilməsi və koronovirus pandemiyasının təsirinin yumşaldılması qeyri-neft sektorunda müvafiq gəlirləri 2022-ci ildə 2021-ci il üçün Mərkəzi Bankın mənfəət göstəricisindən ayırmalar, Dövlət borcundakı vahiddən zəmanəti üzrə öhdəliklərin Təminat Fondundakı vahiddən transfert çıxılmaqla təsdiq edilmiş rəqəmə çatdıracaq. Bu da öz növbəsində 1 mlrd. 844 milyon manat (19,3 faiz) təxmini proqnozlaşdırmağa imkan verməkdədir.

Bundan başqa, Maliyyə Nazirliyi tərəfindən “2022-2025-ci illər üçün makrofiskal çərçivə, 2022-ci il üçün dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair Açıqlama”da İqtisadiyyat Nazirliyinin bəzi hesablamalarına və proqnozlarına yer ayrılmışdı. 2021-2022-ci illərdə neftin bir barrelinin ölkədə orta illik qiyməti 55 dollar, 2023-2025-ci illərdə isə 50 dollar olmuşdur, lakin bu il ölkəmizdə ÜDM-in real artımının 2022-ci ildə 4,6 faiz olacağı bildirilir. Bundan başqa, 2023-cü il üzrə 5,3 faiz, 2024-cü il üzrə 3,7 faiz, 2025-ci il üzrə isə 3,1 faiz təşkil edəcəkdir.

2022-ci ildə nominal ÜDM-in 82,3 milyard manat, qeyri-neft ÜDM-in artımının isə 55,1 milyard manatla 5,2 faiz artarağı gözlənilir. Proqnozlara görə, ortamüddətli perspektivdə iqtisadi artımın bərpası ilə ölkəmizdə ÜDM-in 2022-ci ilin sonu üçün 87,5 milyard manata, 2025-ci il üzrə isə 102,6 milyard manata yüksələcəyi gözlənilir (https://xalqqazeti.com/mobile/az/news/85077, 2021).

## 2.2.Azərbaycanda regionların sosial-iqtisadi inkişafında maliyyə mexanizmlərinin qiymətləndirilməsi və təhlili

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübələrindən də məlum olduğu kimi, o cümlədən ümumi sosial-iqtisadi inkişaf üzrə regional inkişafın zəruriliyi və əhəmiyyəti böyük önəm kəsb etməkdədir. Regionların inkişafı çoxşaxəli və çoxölçülü proses olub, çox vaxt bir sıra müxtəlif sosial-iqtisadi məqsədlər baxımından vacib görünür. AR-da regionların sosial-iqtisadi inkişafına istehsalın, habelə gəlirin artması, cəmiyyətin institusional, sosial-inzibati strukturlarının dəyişməsi, ictimai şüurun dəyişməsi, ənənələrin dəyişməsi daxildir.

Hər bir ölkə üzrə iqtisadi inkişafın dinamizmi, habelə iqtisadi səmərəliliyi, məhsuldar qüvvələrin regionlar və sahələr üzrə kompleks inkişafları, iqtisadi və sosial resurslardan səmərəli formada istifadə edilməsi və Respublikamızın beynəlxalq iqtisadi arenada təmsil olunması səviyyəsi onun xarakterindən asılı olur. İqtisadi siyasət nə qədər dəqiq və faktiki aparılırsa, təsərrüfat mexanizmi bir o qədər dəqiq qurulur və ölkənin sosial-iqtisadi inkişafını sürətləndirir.

İqtisadi mexanizmin ən mühüm və əsas hissələrindən biri ölkəmizdə fəaliyyət göstərən maliyyə mexanizmidir. Əslində ölkədə sosial-iqtisadi inkişafın sürəti ilk növbədə maliyyə mexanizminin düzgün qurulmasından və normal fəaliyyət göstərməsindən asılıdır.

Maliyyə mexanizminin düzgün qurulduğu və reallığa əsaslandığı hər bir ölkədə bir qayda olaraq güclü sosial-iqtisadi inkişaf vardır, burada iqtisadi maraqların tarazlaşdırılmasında və uzlaşdırılmasında sosial ədalət prinsipinə əməl olunmasına münbit şərait yaradılır. Bu, sosial-iqtisadi inkişafın ən mühüm şərtlərindəndir. Bu, xüsusilə demokratik inkişafa yeni başlayan və bir iqtisadi sistemdən başqa iqtisadi sistemə keçən ölkələrdə çox vacibdir ki, bu da çox incə siyasətin aparılmasını tələb etməkdədir. İqtisadi sistem və bunun tərkib hissəsi olan maliyyə sistemi təkmilləşdirilməli və qlobal standartlara cavab verməlidir. Bu

baxımdan, bu məsələ Azərbaycan Respublikası üçün son dərəcə mühümdür və aktual olan bu məsələdə xüsusi yanaşma tələb olunur.

Qeyd etmək lazımdır ki, ölkənin iqtisadi ədəbiyyatlarında maliyyə mexanizmi anlayışına aid bir neçə müxtəlif yanaşmalar mövcuddur. O cümlədən də maliyyə mexanizmi ümumilikdə iqtisadi və sosial inkişafda əlverişli şərait yaratmaq məqsədilə cəmiyyət tərəfindən həyata keçirilən maliyyə münasibətlərinin tənzimlənməsi qaydaları və üsullarının məcmusu kimi ifadə olunur. Maliyyə mexanizmini maliyyə münasibətlərinin təşkili üsullarının, formalarının və növlərinin, onların ölçülməsi qaydalarının və üsullarının məcmusu kimi hesab edənlər var.

Maliyyə mexanizminin strukturu çox mürəkkəbdir. O, müxtəlif maliyyə münasibətlərinə uyğun gələn elementləri ehtiva edir. Maliyyə mexanizminin çoxlu sayda elementlərini tələb edən maliyyə münasibətlərinin müxtəlifliyi maliyyə təşkilatının forma, üsul və növlərinin müxtəlifliyidir.

İctimai təsərrüfatın bir çox subyektlərinin işinin xüsusiyyətlərindən, habelə maliyyə münasibətlərinin, onun dairələrinin müxtəlifliyindən asılı olaraq maliyyə mexanizmlərini bir neçə hissəyə bölmək olar:

**Qrafik 4: Maliyyə mexanizminin hissələri**




**Mənbə:** Müəllif tərəfindən tərtib olunmuşdur

AR regionlarının sosial-iqtisadi inkişafında maliyyə mexanizminin ictimai istehsala təsiri baxımından resursların səfərbər edilməsi, maliyyələşdirilməsi, maddi maraqların yaradılması və s. fəaliyyət sahələri seçilməkdədir.

Maliyyə mexanizminin hər bir dairəsi və hər bir fəaliyyət sahəsi vahid tərkib hissəsi kimi çıxış etməkdədir. Onlar bir-birindən asılıdır və bir-biriylə qarşılıqlı əlaqəlidir. Bununla belə, həm fəaliyyət sahələri, həm də ayrı-ayrı dairələr nisbi müstəqillik əldə edirlər. Bu, maliyyə mexanizminin bütün aspektlərinin daimi əlaqələndirilməsini tələb edir.

Maliyyə mexanizminin fəaliyyəti ölkəmizdə hüquqi reqlamentləşdirmə, idarəetmə və planlaşdırma ilə təmin olunmaqdadır. Hüquqi reqlamentləşdirmə ölkəmizdə dövlət tərəfindən maliyyə fəaliyyətlərinin təşkilini tənzimləyən hüquqi aktların qəbuluyla təmin olunur. Maliyyə idarəçiliyi dövlət və təsərrüfat təşkilatlarının idarəetmə orqanları tərəfindən həyata keçirilməkdədir.

AR regionlarının sosial-iqtisadi inkişafında maliyyə mexanizminin vacib tərkib hissələrindən biri də vergilər və ya vergi mexanizmi sayılır. Bir çox ölkədə vergi siyasətinin düzgün formalaşdırılması, mexanizmin obyektiv faktlar əsasında qurulması və fəaliyyət göstərməsi son dərəcə vacib yer tutur və bu məsələ xüsusilə dövlətin diqqət mərkəzində olmalıdır. Qeyd etmək lazımdır ki, bir çox ölkədə vergi mexanizmi ölkələrin sosial-iqtisadi inkişafının mühüm sistemini təşkil edir.

Beləliklə, ölkəmizdə vergi güzəştləri iki yolla təmin edilir. Birinci istiqamət vergidən tam və ya müvəqqəti azadolmalar, o cümlədən vergi dərəcələrinin aşağı salınması ilə təmin edildiyi halda, ikinci istiqamət vergitutma bazasının aşağı salınması ilə təmin olunur. Azərbaycan Respublikası regionlarının inkişafını təmin edən əsas amil buraya investisiyaların cəlb edilməsidir. Ona görə də vergi güzəştləri ilk növbədə regiona investisiyaların cəlb olunması ilə bağlıdır. İnvestisiya cəlb etmək üçün əsas vergi güzəştləri üzrə mənfəət və digər vergilər üzrə vergi güzəştləri, aşağı vergi dərəcələrinin tətbiqi və s. aid oluna bilər.

Vergitutma bazasının aşağı salınması, vergilərin hesablanması zamanında istehsal edilmiş məhsul və xidmətlərin hər birinin maya dəyərinə daxil olan xərclərin artırılmasıdır. Amortizasiya normalarının artırılmasını, sürətləndirilmiş amortizasiya normalarının tətbiqini də buraya daxil etmək olar.

Unutmaq olmaz ki, vergi güzəştlərinin tətbiqlərinin müsbət və mənfi tərəfləri var. Beləliklə, vergi güzəştləri investisiyaların cəlb edilməsi və əlavə məşğulluq və əlavə məhsul istehsalının yaradılması, regionlarda vergitutma bazasının artırılması, eyni zamanda dövlət gəlirlərinin azalması ilə regional inkişafı stimullaşdıra bilər.

Regional inkişafa təsir göstərən maliyyə mexanizminin əsas vasitələrindən biri dövlətin regionlara subsidiyaları hesab oluna bilər. Bu subsidiyalar yerli özünüidarəetmə orqanlarının büdcə gəlirlərinin dəstəklənməsi, regionda özəl sahibkarlığın investisiya və cari xərclərinin müəyyən hissəsinin ödənilməsi, sosial təminatın artırılması və ya gəlirlərin artırılması məqsədilə verilir.

Bununla belə, bu vasitələrin seçilməsində onların effektivliyini əsaslandırmaq vacibdir. Buna görə də, bu alətlərin təsiri bazar amilləri ilə ciddi şəkildə məhdudlaşdırıla bilər, çünki bazar qüvvələri sosial-iqtisadi inkişaf səviyyələrində regional fərqləri azaltmır. Həmçinin bəzi hallarda seçilən alətlər qarşıya qoyulan məqsədlərə nail olmaq üçün imkan vermir və bunun nəticəsində cəmiyyət itki ilə qarşılaşır. Bu səbəbdən də, regional siyasətin formalaşdırılması, habelə onun maliyyə mexanizminin müəyyən edilməsi ətraflı formada əsaslandırma tələb etməkdədir.

"Azərbaycan Respublikası regionlarının (2004-2008-ci, 2009-2013-cü, 2014-2018-ci illərdə) sosial-iqtisadi inkişafı Dövlət Proqramları"nın uğurlu icrası ilə ölkəmizdə makroiqtisadi göstəricilərin səviyyəsində artımlar əldə edilmiş, habelə sosial-iqtisadi inkişaf sahəsində də nəzərdə tutulan tədbirlərin hər birinin həyata keçirilməsi ilə əhalinin həyat səviyyəsinin daha da yüksəlməsində vacib bir rol oynamışdır.

**Cədvəl 1: Azərbaycan Respublikasında 2014-2021-ci illər üzrə makroiqtisadi göstəricilərin inkişaf dinamikası.**

| № | Göstəricilər | İllər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
| 1 | Ümumi daxili məhsul, (ÜDM) - milyon manat | 58977,80 | 54380,00 | 60425,20 | 70337,80 | 80092,00 | 81896,20 | 72432,20 | 92857,70 |
| 2 | Sənaye məhsulu, milyon manat | 31,90 | 26,20 | 32,30 | 39,60 | 47,70 | 46,70 | 37,10 | 54,50 |
| 3 | Kənd təsərrüfatı məhsulu, milyon manat | 5225,80 | 5635,30 | 5632,10 | 6580,00 | 7010,00 | 7836,70 | 8428,90 | 9163,40 |
| 4 | Əhalinin hər nəfərinə düşən ÜDM, manat | 4180,50 | 5706,60 | 6269,60 | 7226,00 | 8156,20 | 8268,80 | 7262,80 | 9269,30 |
| 5 | Orta aylıq nominal əməkhaqqı, manat | 442,10 | 462,00 | 494,30 | 528,20 | 634,80 | 867,00 | 703,50 | 724,10 |

**Mənbə:** Cədvəl 2022-ci ilədək olan statistik toplu əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Cədvəl materiallarından da göründüyü kimi həm ayrı-ayrı göstəricilər, həm də ayrı-ayrı istehsal sahələrində dinamik inkişaf var və bu inkişaf getdikcə də artır. Bu, ölkədə aparılmış düzgün iqtisadi siyasətin, onun getdikcə daha geniş tətbiq olunduğunu göstərir. Dövlət proqramlarının həyata keçirildiyi 2004-2018-ci illərdə ümumi daxili məhsul istehsalı 3,3 dəfə, qeyri-neft sektorunda 2,8 dəfə, sənayedə 2,6 dəfə, kənd təsərrüfatında isə 1,7 dəfə artım olmuşdur.

Regionlarda dövlət proqramlarının icra olunduğu bu illər ərzində ölkənin makroiqtisadi göstəricilərində sürətlə yaxşılaşma, 2014-cü ilə nəzərən 2021-ci ildə ümumi daxili məhsul (ÜDM) 1,6 dəfə, əhalinin hər nəfərinə düşən ÜDM 2,2 dəfə, sənaye məhsulu üzrə 1,7 dəfə, kənd təsərrüfatı məhsulu 1,8 dəfə, orta aylıq nominal əməkhaqqı isə 1,6 dəfə artmışdır.

Ölkə ərazisində 2020-ci il ərzində yaradılmış 128979 yeni müəssisə və təşkilatlar 69,3 faizlə Bakı şəhərində, 6,6 faizlə Lənkəran-Astara iqtisadi rayonunda, 3,8 faizlə Mərkəzi Aran iqtisadi rayonunda, 3,5 faizlə Qarabağ iqtisadi rayonunda, 3,3 faizlə Gəncə-Daşkəsən iqtisadi rayonunda, 2,6 faizlə Qazax-Tovuz iqtisadi rayonunda, 2,4 faizlə Abşeron-Xızı iqtisadi rayonunda, 2,0 faizlə Dağlıq Şirvan iqtisadi rayonunda, 1,5 faizlə Şəki-Zaqatala iqtisadi rayonunda, 1,4 faizlə Quba-

Xaçmaz iqtisadi rayonunda, 1,4 faizlə Mil-Muğan iqtisadi rayonunda, 1,2 faizlə Şirvan-Salyan iqtisadi rayonunda, 0,7 faizlə Naxçıvan Muxtar Respublikasında, 0,2 faizlə Şərqi Zəngəzur iqtisadi rayonunda fəaliyyətə başlamışdır.

**Cədvəl 2: Regionlar üzrə yeni yaradılmış daimi iş yerləri.**

| | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
| İqtisadi rayonlar | 115869 | 196539 | 281446 | 238947 | 192017 | 128979 |
| Bakı şəhəri | 39365 | 49010 | 68714 | 62215 | 106557 | 89404 |
| Naxçıvan MuxtarRespublikası | 2908 | 3010 | 2437 | 2827 | 3220 | 955 |
| Abşeron-Xızı | 11180 | 11143 | 15222 | 11749 | 6945 | 3139 |
| Dağlıq Şirvan | 4680 | 9298 | 8052 | 5063 | 4675 | 2541 |
| Gəncə-Daşkəsən | 6710 | 16060 | 18168 | 9152 | 4861 | 4318 |
| Qarabağ | 9603 | 20718 | 35796 | 35135 | 12029 | 4536 |
| Qazax-Tovuz | 6800 | 10074 | 10689 | 9144 | 8310 | 3377 |
| Quba-Xaçmaz | 4693 | 9542 | 8373 | 6441 | 3963 | 1775 |
| Lənkəran-Astara | 7723 | 12980 | 28514 | 21232 | 11395 | 8478 |
| Mərkəzi Aran | 6197 | 14226 | 16388 | 8388 | 6702 | 4883 |
| Mil-Muğan | 5115 | 15498 | 44969 | 52747 | 12028 | 1801 |
| Şəki-Zaqatala | 5202 | 10576 | 9508 | 7160 | 6411 | 1989 |
| Şərqi Zəngəzur | 939 | 1218 | 965 | 693 | 323 | 230 |
| Şirvan-Salyan | 4754 | 13186 | 13651 | 7001 | 4598 | 1553 |

**Mənbə:** Azərbaycanın regionları Statistik məcmuə. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (ARDSK), Bakı 2021.

2015-2020-ci illər ərzində əsas kapital üzrə investisiyaları analiz elədikdə əsas diqqətin paytaxt şəhərdə olduğunu görə bilərik. 2020-ci ildə pandemiya və Qarabağ müharibəsindən sonra bəzi iqtisadi regionlarımızda azalma olmuşdur. Cədvəl 3-ə nəzər saldıqda aydın olur ki, bu azalmalar 1,06 faiz fərqlə Abşeron-Xızı iqtisadi rayonunda, 1,05 faiz fərqlə Mil-Muğan iqtisadi rayonunda, 1,04 faiz fərqlə Quba-Xaçmaz iqtisadi rayonunda, 0,79 faiz fərqlə Dağlıq Şirvan iqtisadi rayonunda, 0,49 faiz fərqlə Şirvan-Salyan iqtisadi rayonunda, 0,39 faiz fərqlə Mərkəzi Aran iqtisadi rayonunda, 0,37 faiz fərqlə Lənkəran-Astara iqtisadi rayonunda, 0,09 faiz fərqlə Qazax-Tovuz iqtisadi rayonunda olmuşdur. Cari vəziyyətə baxmayaraq əsas kapital üzrə investisiyalarda artım isə 3,12 faiz fərqlə Bakı şəhərində, 1,04 faiz fərqlə Gəncə-Daşkəsən iqtisadi rayonunda, 0,50 faiz fərqlə Naxçıvan Muxtar Respublikası iqtisadi rayonunda, 0,50 faiz fərqlə Şəki-Zaqatala iqtisadi rayonunda, 0,12 faiz

fərqlə Şərqi Zəngəzur iqtisadi rayonunda, 0,01 faiz fərqlə Qarabağ iqtisadi rayonunda olmuşdur.

**Cədvəl 3: Əsas kapitala investisiyaların həcmində ayrı-ayrı iqtisadi rayonların payı (faizlə).**

| | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
| İqtisadi rayonlar | 100% | 100% | 100% | 100% | 100% | 100% |
| Bakı şəhəri | 73,54% | 74,65% | 68,27% | 63,36% | 58,76% | 61,88% |
| Naxçıvan Muxtar Respublikası | 6,10% | 6,33% | 5,78% | 6,01% | 5,55% | 6,05% |
| Abşeron-Xızı | 2,51% | 1,99% | 2,64% | 7,23% | 13,67% | 12,61% |
| Dağlıq Şirvan | 0,98% | 1,22% | 1,69% | 1,87% | 2,09% | 1,30% |
| Gəncə-Daşkəsən | 2,78% | 2,26% | 2,90% | 2,76% | 1,74% | 2,78% |
| Qarabağ | 0,79% | 1,46% | 2,69% | 2,23% | 1,50% | 1,51% |
| Qazax-Tovuz | 1,42% | 1,33% | 1,67% | 1,76% | 3,03% | 2,94% |
| Quba-Xaçmaz | 1,73% | 2,25% | 2,31% | 2,69% | 3,63% | 2,59% |
| Lənkəran-Astara | 2,19% | 2,79% | 3,11% | 2,94% | 1,53% | 1,16% |
| Mərkəzi Aran | 3,36% | 1,61% | 2,50% | 2,41% | 2,63% | 2,24% |
| Mil-Muğan | 1,90% | 1,43% | 1,77% | 1,94% | 1,68% | 0,63% |
| Şəki-Zaqatala | 1,38% | 1,12% | 2,09% | 2,27% | 2,18% | 2,68% |
| Şərqi Zəngəzur | 0,00% | - | 0,11% | 0,01% | 0,01% | 0,12% |
| Şirvan-Salyan | 1,32% | 1,55% | 2,48% | 2,50% | 2,00% | 1,51% |

**Mənbə:** Azərbaycanın regionları Statistik məcmuə. ARDSK, Bakı 2021.

Maşınqayırma, metallurgiya, mebel, kimya, toxuculuq, yeyinti və digər sahələrdə dinamik artım olub, hətta qlobal iqtisadi böhran şəraitində də Azərbaycan Respublikasının qeyri-neft sənayesi sektorunda irəliləyişə nail olub.

Sumqayıt Texnologiyalar Parkı, Sumqayıt Kimya Sənayesi və Balaxanı Sənaye Parkları qeyri-neft sektorunda davamlı inkişafı təmin etməklə, habelə ölkədə innovativ və yüksək texnologiyalara əsaslanmış rəqabətqabiliyyətli sənaye istehsalının inkişaf etdirilməsi üçün əlverişli şərait yaradıb. Sənaye müəssisələrinin qeyri-neft sektorunun davamlı inkişafı üçün əlverişli şərait yaratması, müasir texnologiyalar üzrə istehsalatda məşğulluğun artırılması, o cümlədən Yüksək Texnologiyalar Parkının yaradılması əhəmiyyət kəsb etməkdədir.

2015-2020-ci dövr üzrə iqtisadi regionlar üzrə baxdıqda sənaye məhsulunun istehsalında bütün iqtisadi rayonların payı analiz edildikdə əsas yeri 2016-ci ildən etibarən Abşeron-Xızı iqtisadi regionun əhatə etdiyini görə bilərik. Naxçıvan Muxtar Respublikası 2015-ci ildə əsas sənaye məhsulları istehsalında birinci yerdə

olmasına baxmayaraq, növbəti illərdə ikinci yeri tutmuşdur. 2015-ci illə müqayisədə Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun istehsalında 2,1 dəfə azalma olduğunu görə bilərik. Abşeron-Xızı iqtisadi regionunda isə bu göstəricidə 1,8 dəfə artma olmuşdur.

**Cədvəl 4: İqtisadi regionlar üzrə sənaye məhsulunun istehsalında ayrı-ayrı iqtisadi rayonların payı (faizlə).**

| | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
| İqtisadi rayonlar | 100% | 100% | 100% | 100% | 100% | 100% |
| Bakı şəhəri | 0,7% | 0,7% | 0,7% | 0,7% | 0,5% | 0,4% |
| Naxçıvan MuxtarRespublikası | 28,8% | 22,7% | 19,2% | 17,6% | 13,9% | 13,6% |
| Abşeron-Xızı | 19,7% | 23,6% | 25,2% | 26,7% | 32,5% | 35,8% |
| Dağlıq Şirvan | 0,5% | 0,5% | 0,5% | 0,5% | 1,0% | 1,1% |
| Gəncə-Daşkəsən | 9,1% | 10,1% | 10,7% | 10,0% | 9,0% | 8,7% |
| Qarabağ | 1,4% | 1,4% | 1,7% | 1,7% | 1,7% | 1,5% |
| Qazax-Tovuz | 4,4% | 4,7% | 4,7% | 4,6% | 4,2% | 4,8% |
| Quba-Xaçmaz | 2,4% | 2,3% | 2,9% | 3,1% | 3,9% | 3,6% |
| Lənkəran-Astara | 2,4% | 2,5% | 2,6% | 2,6% | 2,4% | 2,5% |
| Mərkəzi Aran | 11,6% | 8,3% | 8,7% | 9,0% | 7,7% | 7,6% |
| Mil-Muğan | 4,7% | 8,9% | 6,5% | 5,2% | 6,4% | 5,7% |
| Şəki-Zaqatala | 3,4% | 4,7% | 4,8% | 4,7% | 5,8% | 5,8% |
| Şərqi Zəngəzur | 0,0% | 0,0% | 0,1% | 0,1% | 0,0% | 0,0% |
| Şirvan-Salyan | 10,7% | 12,7% | 11,8% | 13,5% | 11,0% | 8,9% |

**Mənbə:** Azərbaycanın regionları Statistik məcmuə. ARDSK, Bakı 2021.

Ötən il regionlarda yaradılmış təcrübi taxılçılıq təsərrüfatları hər hektardan orta hesabla 55 sentner taxıl, 100 sentnerdən çox yüksək keyfiyyətli qarğıdalı məhsulu əldə edilmişdir. Hazırda Hacıqabul, Beyləqan, Xaçmaz və Cəlilabad rayonlarında beş iri fermer təsərrüfatı tikilməktədir.

Son illərdə respublikamızın rayonlarında, xüsusilə aqrar sektorda istehsalatın inkişafına dövlətin maliyyə dəstəyi güclənmiş, güzəştli kreditlərin çəkisi əhəmiyyətli dərəcədə artmışdır. Sahibkarlığın dəstəklənməsi və regionda milli marağın artırılması məqsədilə regional İnkişaf Proqramlarının icrası zamanı Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına regionlarda sahibkarlıq subyektlərinə güzəştli kreditlər verilmiş, və yeni iş yerləri yaradılmışdır.

Ölkədə pandemiya şəraitinin geniş yayılmasına və bununla bağlı məhdudiyyətlərə baxmayaraq da, 2020-ci ildə ötən ilin müvafiq dövrüylə müqayisədə kənd təsərrüfatı sektoru 2 faiz, habelə heyvandarlıq məhsulları da daxil olmaqla 3,1 faiz, o cümlədən bitkiçilik məhsulları isə 0,8 faiz artıb.

Respublikada regionlar üzrə kənd təsərrüfatının inkişaf dinamikasına nəzər yetirdikdə, 2015-2020-ci illər ərzində Respublika iqtisadiyyatında ümumi kredit qoyuluşları üzrə 2017-ci ildən etibarən artım olduğunu görə bilərik. Pandemiya və müharibənin kredit qoyuluşlarında təsiri kimi azalma olduğunu görə bilərik. Lakin 2020-ci ildə olan bu təsirlərə baxmayaraq, 2015-ci illə müqayisədə kənd təsərrüfatı müəssisələrində mənfəət 2,5 dəfə artmışdır. Xalis mənfəət üzrə isə 2,6 dəfə artım olmuşdur.

**Cədvəl 5: Aqrar bölməyə ayrılan kredit qoyuluşlarının inkişaf dinamikası**

| № | Göstəricilər | İllər | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
| 1 | Respublika iqtisadiyyatına ümumi kredit qoyuluşları (milyon manat) | 21730,4 | 16444,6 | 11757,8 | 13020,3 | 15298,2 | 14530,5 |
| 2 | Kənd təsərrüfatı müəssisələrində Mənfəət , min manat | 53275 | 92290 | 83720 | 116506 | 120622 | 132835 |
| 3 | Kənd təsərrüfatı müəssisələrində Zərər, min manat | 13512 | 17043 | 20906 | 19587 | 27926 | 28820 |

**Mənbə:** Azərbaycanın regionları Statistik məcmuə. ARDSK, Bakı 2021.

Təqdim olunan statistik məlumatlardan da göründüyü kimi, ölkə iqtisadiyyatının əsas sahələrindən biri olan kənd təsərrüfatında müəyyən irəliləyişlər əldə olunub. Lakin bu artım tempinin qeyri-kafi olması təbii ki, qeyd edilən sahədə müəyyən problemlər, aparılan iqtisadi islahatlar və təsərrüfat mexanizminin təkmilləşdirilməsi zərurətindən irəli gəlir.

Bununla belə, kənd təsərrüfatında ərzaq təhlükəsizliyini təmin etmək üçün bitkiçilik və heyvandarlıqla bağlı sahələr inkişaf etdirilmiş və ərzaq məhsulların özünütəminetmə səviyyəsi yaxşılaşdırılmışdır.

Prezidentin 19 mart tarixli sərəncamı nəticəsində epidemiyanın ölkə iqtisadiyyatına, əhalinin məşğulluğuna, makroiqtisadi sabitliyə və sahibkarlıq subyektlərində mənfi təsirlərinin azaldılması tədbirlərinin maliyyələşdirilmə mexanizmi üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə (ARNK) 1 milyard manat ayrılıb və sonra bu vəsait artaraq 3,5 mlrd. manat təşkil edib. Dövlət başçısının müvafiq tapşırığının icrası ilə bağlı Tədbirlər Planı üzrə 2,5 milyon vətəndaşı əhatə etmiş 4 istiqamət üzrə ümumi 10 tədbir nəzərdə tutulmuşdur (Əliyev S., Çıraqov E., 2020).

Koronavirus infeksiyası ilə mübarizə sahəsində həyata keçirilən tədbirlər üzrə maliyyə dəstəyi göstərmək məqsədi ilə Prezidentin 19 mart tarixli sərəncamı ilə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılmışdır. Dövlət başçısı ilk olaraq Fonda illik əməkhaqqını bağışladı və eyni göstərişlə Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan(ARPEF) Koronavirusla Mübarizəyə Dəstək Fonduna ümumi olaraq 20 milyon manat ilkin vəsait ayrıldı. Birinci vitse-prezident bir il üzrə əmək haqqını da könüllü olaraq bu fonda ianə etmişdir.

Ölkə rəhbərliyinin bu mövzuda təşəbbüsü könüllü yardımların sayını artırıb, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitlərlə yanaşı, fiziki və hüquqi şəxslər, fərqli ictimai fiqurlar da bu aksiyalara qatılmışlar. Ümumilikdə ianə aksiyasında 3375 hüquqi şəxs və 12208 fiziki şəxs ianə təşəbbüsü göstərib. Yığılan vəsaitin şəffaf və düzgün xərclənməsinə nəzarət etmək məqsədilə 2021-ci ilin aprel ayının 11-də Azərbaycan Respublikası Baş Nazirinin sərəncamına əsasən Nazirlər Kabineti yanında sahibkarları təmsil edən 5, Operativ Qərargah nəzdində təmsilçilik edən 2 nümayəndə daxil olunmaqla 7 təmsilçidən qurulmuş Koronavirusla Mübarizəyə Dəstək Fondunun nəzdində İctimai Nəzarət Şurası yaradılıb. May ayının beşində İctimai Nəzarət Şurasının birinci iclası keçirilib və toplanmış ianələr haqqında məlumatları ictimaiyyətə təqdim etmək məqsədilə rəsmi dövlət saytı (http://COVID19fund.gov.az, 2021) yaradılıb.

# III FƏSİL. REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA MALİYYƏ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

## 3.1. Regionların sosial-iqtisadi inkişafında maliyyə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri

Bölgələrdə yaşayan insanlara sosial-iqtisadi prosesləri öyrənib başa düşməyə kömək etmək, yaşadıqları bölgənin iqtisadi həyatında daha fəal iştirak etmək və onların peşə inkişaf etdirmək imkanını təmin etmək vacibdir. Regionlarda təsərrüfatın inkişafı üçün bütün səviyyələrdə dövlət orqanları tərəfindən ölkəmizdə həyata keçirilən fəaliyyətlərin əlaqələndirilməsi və məsuliyyətə cəlb edilməsi üçün səmərəli mexanizm formalaşdırılması zərurətə çevrilmişdir. İqtisadi inkişaf sahəsində hökumətlərarası əməkdaşlıq sistemi buna zəmin yaradır.

Regionlarda xüsusi iqtisadi zonaların yaradılması iqtisadi rayonlarda klasterlərin yaradılmasında və onların ixtisaslaşmasının artırılmasında mühüm rola malikdir. Belə zonaların yaradılmasında məqsəd ölkədə prioritet sahələrin inkişaf etdirilməsi, investisiya fəallığının artırılması, səmərəli istehsal, rəqabətqabiliyyətli və xidmət sahələrinin təşkilinə dəstək verməkdir. Bu baxımdan “Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 6 mart 2007-ci il tarixli Sərəncamı mühüm əhəmiyyət kəsb edir. “Xüsusi iqtisadi zonalar haqqında” Azərbaycan Respublikasının 2009-cu il 14 aprel tarixli Qanunu qüvvəyə minmiş və bu qanunun tətbiqi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 3 iyun tarixli Fərmanı imzalanmışdır. Azərbaycanda xüsusi iqtisadi zonaların yaradılması üçün lazımi normativ-hüquqi baza artıq yaradılıb. Fikrimcə, xüsusi iqtisadi zonaların yaradılması təkcə fayda verməməli, həm də regionda inkişaf etdiriləcək sənaye sahələrini, zəruri infrastrukturu (yol, işıq, qaz, su təchizatı və s.), kadr hazırlığı və digər məsələləri müəyyən etməlidir.

Ölkədə ayrı-ayrı regionların inkişafına klaster yanaşmasını təmin etmək üçün innovativ-region komplekslərinin yaradılması böyük əhəmiyyət kəsb edir. Belə

komplekslərin yaradılması innovasiyaların yayılmasına, istehsalın artması (nisbətən kiçik istehsalatların bir ərazidə yerləşməsi ilə əlaqədar) nəticəsində irimiqyaslı qənaətlərə gətirib çıxaracaq. Bu, innovativ-regional komplekslərdə istehsal olunan məhsulların keyfiyyətini yaxşılaşdıracaq və qiymətləri aşağı salacaqdır. İstehsal miqyası rayonda mövcud sənaye sahələrinin inkişaf səviyyəsinə mühüm təsir göstərir. Beləliklə, istehsal miqyası artdıqca məhsul vahidinə düşən xərclər azalır. Bu innovativ-regional komplekslərdə kiçik və orta müəssisələrin yaradılması ayrı-ayrı xidmətlərə və məhsullara ümumi tələbatı artıracaq və nəticədə göstərilən xidmətlərin dəyərini aşağı salacaqdır.

Ölkədə istehsalın regional bölgüsünün hazırkı vəziyyətinin tədqiqi və regionların inkişaf potensialının artırılması yollarının müəyyən edilməsi müxtəlif regionların gələcək inkişafı üçün zəruri olan maliyyə resurslarının həcmini müəyyən etməyə, aktivləşməyə mane olan amilləri müəyyən etməyə imkan verəcəkdir. Dövlətin mühüm funksiyalarından biri də bazar mexanizmindəki çatışmazlıqları aradan qaldırmaqdır.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı araşdırma aparmaq, hər bir region üzrə inkişaf strategiyasını qiymətləndirmək lazımdır. Elə etmək lazımdır ki, hər bir rayon üzrə investisiya proqramı onun iqtisadi və sosial vəziyyətinə uyğun hazırlansın. Sorğu ən azı ildə bir dəfə və ya sosial-iqtisadi vəziyyətin sürətli dəyişməsi göstəriciləri olduqda aparılmalıdır.

Regional səviyyədə ərazi investisiya planının əsas funksiyalarına aşağıdakılar daxil etmək olar:

**Qrafik 5: Regional səviyyədə investisiya planının əsas funksiyaları**




**Mənbə:** Müəllif tərəfindən yaradılmışdır.

Regionlarda mövcud maliyyə mexanizmlərinin təkmilləşdirilməsi prosesində investisiya təşviqinin vahid sisteminin tətbiqi və xarici investisiyaların cəlb edilməsinin səmərəli mexanizminin yaradılması nəzərə alınmalıdır. İnvestisiyaların təşviqi və investisiya layihələrinin açıq və şəffaf şəkildə həyata keçirilməsinə dəstək üçün vahid mexanizm hazırlamaq lazımdır.

Şəhər və kəndlərdə investisiya layihələri üçün informasiya məkanının yaradılması təklif olunur. Bütün vətəndaşlar yaşadıqları ərazidə bütün yeni investisiyalar haqqında məlumat əldə edə biləcəklər. İnvestisiya prosesində vahid qərar qəbuletmə prosesinin qurulması zəruri hesab olunur.

Azərbaycanın regionlarında təkmilləşdirilməsi üzrə müəyyən tədbirlər görülməkdədir. Nümunə olaraq, Sahibkarlığın İnkişafı Fondu (SİF) vasitəsilə regionların sosial-iqtisadi inkişafını yaxşılaşdırmaq üçün güzəştli kreditlər verilir. Bununla bağlı yeni-yeni zavodlar və fabriklər açılır, kiçik və orta biznes strukturları formalaşdırılır, fond vasitəsilə fermerlərə dəstək verilir. Bu güzəştlərdə informasiya-kommunikasiya texnologiyaları üzrə sahibkarlıq fəaliyyətləri istisna edilmişdir. Fondun vəsaitləri regionların sosial-iqtisadi inkişafında əsas istiqamətləri üzrə sahibkarlıq subyektlərində investisiya layihələrinin maliyyələşdirilməsi istiqamətində yönəldildiyini görə bilərik.

Fond tərəfindən regionlardakı sahibkarlıq subyektlərinə aşağıdakı hədlərdə güzəştli kreditlər verilir:

· 5 000 manat həcmindən - 50 000 manata qədər / kiçik həcmli;

· 50 001 manat həcmindən - 500 000 manata qədər / orta həcmli;

· 500 001 manat həcmindən - 10 000 000 manata qədər / böyük həcmli.

Bu kreditlər də müvafiq olaraq 3 il, 5 il və 10 il müddətinə qədər verilir. Tələb edilən məbləğin müəyyən müddətə krediti ödəyə bilməməsi KOS-ların tez-tez üzləşdiyi problemlərdən biridir. Azərbaycanın regionlarında fermerlərin qaldırdığı problemlərdən ilkin olaraq irihəcmli və uzunmüddətli kreditlərə çıxışa imkanlarının

məhdud olmasıdır. Sahibkarlığın İnkişafı Fondunun təyin etdiyi müddət kənd təsərrüfatı ilə məşğul olan KOS və fermerlər üçün kifayət qədər güzəştli olmadığını bizə göstərir.

KOB-ların maliyyə resursları əsasən kapital və xarici resurslar kimi iki yerə bölünür. Kapital sahibinin və tərəfdaşlarının biznesə qoyduğu sərmayə kapitala aiddir. Xarici resurslar isə faiz müqabilində fəaliyyət göstərməyən şəxslərdən və ya maliyyə qurumlarından əldə edilən resurslardır (Гаджиева С.Т., 2019). Sahibkarın kapital və xarici mənbələrdən başqa maliyyə əldə etmək üçün müraciət edə biləcəyi müasir maliyyələşdirmə üsulları və bir çox korporativ maliyyə dəstəyi mövcuddur.

Maliyyə baxımından KOB-ların üzləşdiyi problemləri nizamnamə kapitalının çatışmazlığı, dövriyyə vəsaitlərinin çatışmazlığı, kreditlərin alınmasında çətinliklər, kapital bazarından vəsait əldə etməkdə çətinliklər, maliyyə idarəçiliyindəki çatışmazlıqlar kimi sadalaya bilərik.

KOB-un dəstəklənməsi üçün Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBIA) yaradılmışdır. Hazırda olan proqramlarından “Startap şəhadətnaməsi” ilə bizneslər 3 il müddətinə gəlir və mənfəət vergisindən azad olunurlar. Digər təklif etdiyi güzəştlərdən biri də bazar araşdırmasında KOB-lara maliyyə dəstəyi göstərir. Ödənişsiz təlimlər, kurslar,məsləhət xidməti və video təlimlər paketi təklif edir. O cümlədən də, 20 000 Azn həcmində layihələrin maliyyələşdirilməsində qrantlar təklif edir.

Müəssisələr qurulanda bəzi mənbələr əsasında qurulur. Bu resurslar müəssisənin mülkiyyətçisi və ya ortaqları tərəfindən və ya üçüncü şəxslər tərəfindən müəssisəyə verilən borclar şəklində verilə bilər. Müəssisələrin sahibləri və tərəfdaşları tərəfindən biznesə qoyulan pul və hər cür pulla ölçülə bilən dəyər kapital kimi ifadə edilir. Bu gün müəssisələr yaranma mərhələsində rəqabət şəraitində mövcud olmaq üçün intensiv kapitala ehtiyac hiss edirlər. Bu kapitalı öz resurslarından təmin edə bilməyən müəssisələr xarici resurslardan istifadə etməyə meyllidirlər və bu zaman bu resurslara görə əlavə faiz və buna bənzər ödənişlər

edirlər. Biznes resurslarının bu və ya digər şəkildə xaricə axını KOB-ların investisiya yatırmasında, mənfəətdən ehtiyat ayırmasında və ya sahibləri və tərəfdaşları üçün mənfəət əldə etməsində problemlər yaradır.

Dövriyyə kapitalı, bir qayda olaraq, hesabat dövründə nağd pula çevrilə bilən iqtisadi dəyərlərə qısamüddətli investisiyadır. Əsas kapitala investisiyalarını tamamlamış kiçik müəssisələr fəaliyyət göstərmək üçün dövriyyə kapitalına ehtiyac duyurlar. Resursları məhdud olan belə müəssisələr investisiya mərhələsində daha çox əsas kapital elementləri üzərində cəmləşdikləri üçün dövriyyə kapitalına ehtiyacı arxa plana keçirirlər. Bununla belə, müəssisələr üçün təcili ehtiyac olan dövriyyə kapitalı üçün lazımi qaynaqlar ayrılmadıqda, onu əldə etmək üçün borc götürməyə məcbur olurlar. Bu mərhələdə dövlətin KOB-lara maliyyə dəstəyi, kredit güzəştləri, gecikdirilmiş ödəniş imtiyazları, aşağı faiz dərəcəsi ilə yardımı bu müəssisələrin fəaliyyətini davam etdirməsi üçün vacib amildir.

İnflyasiya şəraitində olan iqtisadiyyatlarda qiymətlərin davamlı olaraq dəyişməsi, yerli valyutanın alıcılıq qabiliyyətinin zəifləməsi, ayrı-ayrı şəxslər və qurumların götürdüyü kreditlərin xərclərinin artması bütün sahibkarlıq subyektlərinə mənfi təsir göstərir. Xüsusilə belə çətinliklərin yaşandığı dövrlərdə istehsal vəsaitlərinin yüksək artımı müəssisələri istehsal etmək fikrindən əl çəkməyə məcbur edir. Müəyyən kapital və resurs strukturu ilə fəaliyyət göstərməyə çalışan KOB-lar belə mühitlərdə rəqabət apara bilmir və iri şirkətlər tərəfindən kommersiya mühitindən sıxışdırılır.

Ölkəmizdə KOB-ların problemlərinə nəzər saldıqda görürük ki, ən mühüm problemlər maliyyə problemləridir. Belə hallarda bizneslərin maliyyə ehtiyaclarını müxtəlif mənbələrdən, xüsusilə də bank kreditlərindən ödəməyə çalışdıqlarını görürük. Regionların sosial-iqtisadi inkişafına dəstək məqsədilə büdcədən xəstəxana, məktəb, yol, infrastruktur layihələrinin tikintisinə çoxlu proqramlar ayrılıb, bütün maliyyə mexanizmləri faktiki olaraq təkmilləşdirilib. Rayonlara ayrılan vəsaitlər əsasən, büdcə xərclərinə uyğun investisiya yönümlü xərclər,

mərkəzləşdirilmiş xərclər, sosialyönümlü xərclər, aztəminatlı ailələrin həyat səviyyəsinin yaxşılaşdırılması üçün dəstək proqramları hazırlanır.

Dövlət səviyyəsində investisiya planı işlənib hazırlanmalı, investisiyalar haqqında qanunlara əlavələr edilməlidir. Xarici investorların cəlb edilməsi üçün informasiya sisteminin inkişafı regional səviyyədə faydalı olacaq. Xarici investisiyaların cəlb edilməsi üzrə səmərəli siyasətin yaradılması məqsədilə tikintiyə icazələrin verilməsinə uyğun olan mövcud mexanizmlər təkmilləşdirilməlidir. Bu sənədin bütün səviyyələrdə vahid informasiya məkanının inkişaf etdirilməsində, investisiya layihələri, onların xərcləri, faydaları və müddətləri haqqında məlumatların verilməsində faydalı olacaqdır.

Bu amil rayonda iqtisadi fəallığı və nəticədə rayonun maliyyə potensialını artırır. Bu gün regionlarda infrastrukturun inkişafı Dövlət İnvestisiya Proqramı çərçivəsində həyata keçirilir. Bununla belə, dövlət investisiyalarının istiqamətlərinin və inkişaf institutları tərəfindən güzəştli maliyyələşdirmənin prioritetinin müəyyən edilməsində regionun ixtisaslaşmış məhsullarının dəyər zəncirindəki boşluqların aradan qaldırılması prioritet məsələ kimi nəzərə alınmalıdır (İsayev E., 2020).

Dövlət investisiya proqramı ölkənin sosial-iqtisadi inkişaf proqramının tərkib hissəsidir və dövlət tərəfindən investisiya siyasətinin həyata keçirilməsi üçün səmərəli vasitədir (Əliyev S.,2020). Dövlət investisiya proqramına dövlət orqanları tərəfindən sifariş edilən və dövlət müəssisələri tərəfindən həyata keçirilən investisiya layihələri daxildir. Dövlət investisiya proqramının əsas məqsədinə nail olmaq və ölkə iqtisadiyyatının davamlı inkişafını təmin etmək məqsədilə aşağıdakı vəzifələr müəyyən edilmişdir:

• sosial-iqtisadi inkişafın sürətləndirilməsi;

• dövlət və özəl investisiyaların həcminin artırılması;

• yeni iş yerlərinin yaradılması;

• xarici investisiyaların cəlb edilməsi və investisiya imkanlarının genişləndirilməsi;

• investisiya prosesinin maliyyə bazasının inkişafı və bilik bazasının təkmilləşdirilməsi;

• beynəlxalq maliyyə institutları tərəfindən ölkədə həyata keçirilən investisiya proqramlarının səmərəli şəkildə əlaqələndirilməsi.

Fikrimcə, dövlət investisiyalarının milli iqtisadiyyatın ayrı-ayrı regionların və sahələrinin sosial-iqtisadi inkişafına təsirinin qiymətləndirilməsi vacibdir.

Hökumət güzəştli kreditlərin verilməsini infrastrukturun inkişafına, təhsil sisteminin təkmilləşdirilməsinə və sairə dövlət investisiyaları ilə əlaqələndirməlidir (Quliyeva A.E, 2020). Belə ki, bu infrastruktur sahələrinin inkişafı həmin sahələrdə göstərilən xidmətlərin həcmini və keyfiyyətini artırır. Üstəlik, bu xidmətlərdən istifadə edən qurumların sayını artırmaq üçün özəl sektorun dövlət maliyyələşməsinə ehtiyac var. Deməli, sosial-iqtisadi inkişaf baxımından regionlararası bərabərsizliklərin azaldılmasının maliyyələşdirilməsi mexanizmi regionda xərclərin maliyyələşdirilməsi üçün vəsaitlərin cəlb edilməsini və regionun daxili maliyyə potensialının artırılmasını əhatə etməlidir. Belə yanaşma bütün regionlarda yaşayan insanların ictimai imkanlara bərabər çıxışının yaradılmasını sürətləndirir.

## 3.2 Müasir şəraitdə ölkənin maliyyə sektorunun vəziyyəti və regionların sosial iqtisadi inkişafına təsiri

Müasir şəraitdə Azərbaycan iqtisadiyyatının maliyyə sektorunda əsas istiqamətləri dayanıqlı iqtisadi inkişafının təmin edilməsi və bu sektorda fiskal və monetar siyasətinin tənzimlənməsində müəyyən dəyişikliklər edilməsi məqsədi daşıyır. Yeri gəlmişkən onu da qeyd edə bilərik ki, pandemiya dövründə ölkədə iqtisadi islahatların həyata keçirilməsi kontekstində iqtisadi siyasətin müvafiq konkret şərtlərə uyğun həyata keçirilməsi bu dövr üçün çox mühümdür. Qeyd etmək olar ki, pandemiya şəraitində ölkədə fiskal və monetar siyasətlərinin tətbiqi yolu ilə

həm milli, həm də regional iqtisadiyyatların stimullaşdırılması, maliyyə sektorunda müəyyən sabitliyin əldə edilməsi mümkündür (Azəri N., 2020).

Böhran dövründə fiskal siyasətin təsirinə diqqət artırılmalıdır. Belə ki, iqtisadi böhran (pandemiya, müharibə, neftin qiymətinin aşağı düşməsi və s.) dövründə makroiqtisadi sabitliyin tənzimlənməsi fiskal və monetar siyasətin optimal koordinasiyasından xeyli dərəcədə asılıdır. Bu dövrdə ölkə iqtisadiyyatının milli inkişafı problemlərinin həllində neft gəlirlərinin istifadəsi ilə bağlı fiskal və monetar siyasətinin əlaqələndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Beləliklə, bu siyasət ölkədə mövcud inflyasiyanın səviyyəsinə uyğun olaraq ciddi iqtisadi və sosial təhlükənin əsasını təşkil edir. 2020-ci ildə ölkədə həyata keçirilən uğurlu monetar, fiskal siyasət və digər iqtisadi tədbirlər nəticəsində xarici və daxili şoklara uğurlu cavablar verilmiş, iqtisadiyyatın bütün sahələrinə güclü təsir göstərən bu şokların səmərəli idarə olunmasına şərait yaradılmışdır. Azərbaycanın sosial-iqtisadi vəziyyəti 2022-ci il və ortamüddətli dövr üçün ölkədə dayanıqlı iqtisadi artım trayektoriyasına qayıtmaq, növbəti 10 il ərzində ÜDM-in iki dəfə artması, reallıqlar fonunda makroiqtisadi sabitlik və işğaldan azad edilmiş ərazilərin bərpası kimi məsələlərlə üz-üzədir.

Koronavirus pandemiyası Azərbaycanda iqtisadi inkişafa yeni yanaşmalar tələb etdi. Bu, elmi cəhətdən əsaslandırılmış yeni sosial-iqtisadi inkişaf strategiyasının işlənib hazırlanmasını tələb edirdi. Bu məqsədlə ölkədə ilkin olaraq iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi hazırlanıb və qəbul edilib. Pandemiyanın müddəti ilə bağlı qeyri-müəyyənlik bütün milli iqtisadiyyatlardan və beynəlxalq təşkilatlardan bu iqtisadi prosesə təsir edəcək mexanizmlər, qərarlar, qaydalar, qanunlar, o cümlədən iqtisadi layihələr, proqramlar və tədbirlər planı qəbul etməyi və birgə səmərəli işləməyi tələb etdi. İlk növbədə aparıcı dövlətlər və beynəlxalq təşkilatlar pandemiya ilə bağlı proqnozlar verməyə başlayıblar. Dünya Bankı pandemiyanın İkinci Dünya Müharibəsindən sonra ən dərin böhrana səbəb olacağını bildirmişdir. Asiya İnkişaf Bankı (AİB) pandemiya ilə bağlı gərginliyin

sosial iğtişaşlara və gərginliyə səbəb olacağını, ABŞ və Çin arasında ticarət gərginliyinin artmasının mühüm risk faktoru olduğunu bildirib və pandemiya zamanı onların azalacağını proqnozlaşdırıb. Pandemiyanın Azərbaycan iqtisadiyyatına təsiri Ölkədə karantin rejiminin tətbiqi və sonradan bu müddətin uzadılması, ilk növbədə, əhalinin və onun gəlirlərinin azalmasına səbəb olub. Bu, real alıcılıq qabiliyyətinin aşağı düşməsinə səbəb olmuş, nəticədə istehlak bazarı daralmağa başlamış, ticarət dövriyyəsi azalmış, əhaliyə göstərilən xidmətlər azalmış, ərzaq məhsulları bahalaşmışdır. Bütün bu faktorlar xüsusilə regionlarda sosial-iqtisadi inkişafa ciddi maneələr yaradır. Eyni zamanda, əsas kapitala investisiyaların həcminin azalması müşahidə olunub. Lakin bu dövrdə qeyri-neft sənayesi və kənd təsərrüfatını əhatə edən və ölkənin ixrac potensialının əsas göstəricisi olan ticarət dövriyyəsində artım müşahidə olunub. Belə bir şəraitdə təbii ki, iqtisadi sahədə aparılan fiskal və pul-kredit siyasəti və onun səmərəli tənzimlənməsi xüsusi əhəmiyyət kəsb edirdi. Qeyd edək ki, pandemiya dövründə ümumilikdə maliyyə sisteminin formalaşmasında, təkmilləşdirilməsində və onun zəruri mexanizmlərinin tətbiqində dövlətin rolu və məsuliyyəti artır.

Bir tərəfdən dünyada davam edən maliyyə böhranı, digər tərəfdən bütün ölkələrin iqtisadi və sosial həyatına mənfi təsir göstərən COVID-19 pandemiyası milli iqtisadiyyatlarda maliyyə sabitliyinin və təhlükəsizliyinin təmin edilməsini əsas problem və vəzifəyə çevirmişdir. Bu baxımdan, təkcə Azərbaycan üçün deyil, bütün dünya iqtisadi sistemi üçün ən mühüm iqtisadi problem makroiqtisadi vergi və pul siyasətinin səmərəli həyata keçirilməsi, ilk növbədə, büdcə sektorunun yenidən strukturlaşdırılması və ən böyük iqtisadi problemlərin tətbiqi ilə bağlıdır. Büdcə planlaşdırılmasının səmərəli üsulları, büdcə gəlirləri və xərclərə nəzarətin effektivliyi artırılmalıdır. Bu problemlərin real səmərəliliyini təmin etmək üçün institusional oriyentasiyanın gücləndirilməsinə, yəni bu problemlərin həllinə dəstək verəcək qanunların işlənib hazırlanmasına və həyata keçirilməsinə ehtiyac var (Məmmədli E., 2020). Ölkədə iqtisadi islahatları dəstəkləyəcək qanunlar qəbul edilib.

Məsələn, struktur islahatlarının tərkib hissəsi olan Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurası idarəetməyə müsbət təsir göstərməli idi.

Pandemiya şəraitində Azərbaycan iqtisadiyyatının dayanıqlı iqtisadi inkişafa çevrilməsi iqtisadi inkişafda dəyişiklikləri zəruri edir. Bu baxımdan fiskal və monetar siyasətinin dövlətin pul resursları ilə əsas qarşılıqlı əlaqəsi büdcə kəsirinin maliyyələşdirilməsindən və pul sferasının səmərəli idarə olunmasından asılıdır. Fiskal-büdcə-vergi kəsirinin inflyasiyanın səviyyəsinə və istehsalın artım tempinə təsiri də onun necə maliyyələşdirilməsindən xeyli dərəcədə asılıdır. Bildiyimiz kimi, dövlət büdcəsinin kəsiri əsasən 4 alternativ mənbədən maliyyələşdirilir:

**Qrafik 6: Dövlət büdcəsinin kəsiri maliyyələşdirən 4 alternativ mənbə**




**Mənbə:** Müəllif tərəfindən yaradılmışdır.

Qeyd edim ki, bu dörd mənbədən də istifadə etmək olar. Bununla belə, unutmaq olmaz ki, monetar və fiskal siyasətin əlaqələndirilməsi iki istiqamətdə həyata keçirilə bilər: birinci istiqamətdə Mərkəzi Bank hökumətin maliyyə ehtiyaclarından asılı olmayaraq lider mövqe tutur, pul-kredit orqanı artımı müəyyən edə bilər. Belə ki, hökumət daxili və xarici maliyyə bazarlarının maliyyə imkanlarına uyğun olaraq büdcə kəsirini müəyyən etməyə məcbur ola bilər və hökumət büdcə kəsirinin azaldılmasına diqqət yetirəcək. Bu vəziyyət xərc prioritetlərinin qeyri-qənaətbəxş hesablanması təhlükəsi yaradacaqdır. Beləliklə, hökumət xarici maliyyələşdirməyə daha çox meylli olacaq və daxili bazarda zərurətdən daha çox borc istiqrazı yerləşdirəcək. İkinci istiqamət Maliyyə Nazirliyinin mövqeyidir ki, pul-kredit orqanının razılığı olmadan büdcə kəsirinin həcmini müəyyən edəcək, eyni

zamanda istiqraz bazarının maliyyə imkanları ön plana çıxacaq və bank lazımi vəsaitləri təmin edəcək. Bazar qiymətlərinin səviyyəsini nəzərə alsaq, real pula tələb artım tempini üstələdikcə inflyasiya artmağa başlayacaq. Təbii ki, bazarda qeyri-sabitlik və inflyasiya daxili maliyyə bazarının inkişafını ləngidir. Hər iki istiqamət monetar və fiskal siyasətin koordinasiyası vasitəsilə vəziyyəti yaxşılaşdıra bilər. Nəticədə, maliyyə bazarlarının inkişafı monetar və dövlət borcunun idarə edilməsi prosedurlarının birtərəfli inkişafına qarşılıqlı gücləndirici təsir göstərəcəkdir. Bu, fiskal və monetar siyasətlərinin səmərəli əlaqələndirilməsi nəticəsində iqtisadiyyata daha az ziyan vurmaqla milli maliyyə bazarının inkişafına kömək edə bilər. Makroiqtisadi tənzimləmədə ölkədə fiskal və monetar siyasətin səmərəli idarə olunması xüsusi əhəmiyyət kəsb edir. Büdcənin formalaşmasında neft gəlirlərinin rolu fiskal siyasətlə pul siyasəti arasında əlaqənin yaxşılaşdırılmasını bu gün, koronavirus pandemiyası şəraitində xüsusilə aktual edir. Bu dövrdə inflyasiya ilə mübarizə sahəsində həyata keçirilən tədbirlərin iqtisadi və sosial proseslərə təsiri nəzərə alınmalıdır.

Sosial-iqtisadi tarazlıq pozulduqda hökumət ilk növbədə istehlak qiymətlərini və əmək haqqının mümkün sabitliyini qorumağa diqqət yetirəcək. İki siyasətin qarşılıqlı əlaqəsi həm də Mərkəzi Bankın mənfəətinin dövlət büdcəsinə köçürülməsi ilə bağlıdır. Bu məbləğ hər il büdcə təsdiq edilərkən Milli Məclis tərəfindən müəyyən edilir. Bu, iqtisadi vəziyyət, yəni inflyasiya kontekstində makroiqtisadi sabitlik üçün müəyyən dərəcədə təhlükəlidir, çünki belə bir vəziyyətdə Mərkəzi Bank şərtlərə uyğun olaraq öz vəzifələrini yerinə yetirmək üçün zərərli qərarlar qəbul edə bilər. Mərkəzi Bank adətən pullarını əskinasların buraxılması və depozit əməliyyatları vasitəsilə xərcləyir. Belə bir şəraitdə Mərkəzi Bank və Maliyyə Nazirliyi birgə məsləhətləşmələr aparmalıdır. Göründüyü kimi, hər iki siyasətin fiskal və monetar effektivliyi büdcə kəsirinin dövlətin pul resursları ilə maliyyələşdirilməsi və pul sferasının bütün dövrlərdə, xüsusən də iqtisadiyyatda inflyasiya dövrlərində idarə edilməsindən ibarətdir. İstər fiskal, istərsə də monetar

siyasətin məqsədləri düzgün əlaqələndirilərsə, bu dövrdə pandemiya nəzərə alınmaqla, iqtisadiyyatın bu məqsədlərə minimal zərərlə nail olunmasına şərait yaratmaqla milli maliyyə bazarının inkişafına şərait yaratmaq olar. Xalq təsərrüfatının iqtisadi tənzimlənməsi prosesində həyata keçirilən hər bir fəaliyyət müəssisələrin istehsal xərclərinə birbaşa təsir göstərir. İqtisadiyyatın bütün sahələri iqtisadi fəaliyyət kontekstində bir-biri ilə qarşılıqlı əlaqədə olduğundan bir sahədə baş verən dəyişiklik bütün sahələrə müsbət və ya mənfi təsir göstərir. Qeyd edək ki, iqtisadi böhranın şərtlərinə uyğun olaraq həm qlobal, həm də milli iqtisadiyyatlar günün çağırışlarına və tələblərinə uyğun olaraq yenilənir.

Mövcud iqtisadi vəziyyət ticarət və investisiyaların, xüsusən də xarici investisiyaların azalmasına səbəb olub. Tədiyyə balansının əsas komponenti - xarici ticarət balansı əhəmiyyətli dərəcədə azalsa da, müsbət nəticə olub. Ölkənin strateji valyuta ehtiyatları sabit qalıb, valyuta ehtiyatları 50 milyard dolları ötüb. Bununla belə, məcmu tələb və təklif azalıb və etimad indeksi 2020-ci ildə mənfi zonaya düşüb. İqtisadiyyatda qeyri-müəyyənlik 2019-cu illə müqayisədə 2020-ci ildə 4% azalmışdır (https://marja.az/65557/merkezi-bankin-2021-ci-il-ucun-beyanati, 2020). Bu dövrdə qeyri-neft sektorunda iqtisadi tənəzzül səngiyib, lakin məcmu istehsal mənfi zonada qalıb. Bu dövrdə hökumət və Mərkəzi Bank böhrandan təsirlənən sahələrin dəstəklənməsinə diqqət yetirərək kontur-tsiklik fiskal siyasəti, yumşaq monetar siyasəti və makroprudensial güzəştləri dəstəkləməklə antiböhran tədbirlərini tənzimləməyi qarşısına məqsəd qoymuşdur. 2020-ci ildə Mərkəzi Bankın pul siyasəti əsasən inflyasiyanın idarə olunmasına, monetar siyasət isə pandemiya şəraitində xarici və daxili mühitin makroiqtisadi sabitliyə mənfi təsirlərini neytrallaşdırmaqla məcmu təklifin kəskin azalmasının qarşısını almağa yönəlib. Pandemiyanın yaratdığı qeyri-müəyyənlik və istehlak-investisiya xərclərinin azalması nəticəsində məcmu tələbin azalması əsas antiinflyasiya amilləri olub. Belə ki, dünya bazarında qiymət artımı istehlak qiymətlərinin də artmasına təsir edib. Bu amillər arasında qeyri-neft emalı sənayesi, ticarət, xidmətlər, eləcə də tikinti

sektorunda inflyasiya gözləntiləri də öz təsirini göstərmişdir. Eyni zamanda, inflyasiyanın hədəf səviyyəsində saxlanılması valyuta bazarında sabitliyin qorunmasına yönəlib. Bu baxımdan Mərkəzi Bank Dövlət Neft Fondunun valyuta satışı üzrə hərraclar keçirməklə daxili bazarda dollarlaşmanı sürətləndirib ki, bu da valyuta bazarında tələbin artmasına səbəb olub. Bankların bu sahədə səmərəli fəaliyyət göstərməsi valyuta bazarında sabitlik yaradıb. Dünya bazarında neftin qiymətinin nisbətən bərpası və tərəfdaş ölkələrin valyuta bazarlarında sabitləşməsi nəticəsində valyuta bazarında sabitliyi təmin etmək mümkün olub.

Bildiyimiz kimi, mənfəət vergisi dövlət büdcəsinin maddi istehsalı prosesləri ilə bağlıdır. Bu fakt bütün iqtisadi şəraitdə iqtisadiyyatın dövlət tənzimlənməsinin həyata keçirilməsinə şərait yaradır. Digər vergilərdən, məsələn, ƏDV-dən fərqli olaraq, mənfəət vergisi tənzimləyici xarakter daşıyır, lakin qeyd etmək lazımdır ki, xüsusən də bugünkü şəraitdə sahibkarların sahibkarlıq və bizneslə məşğul olduqları sahənin xüsusiyyətləri ilə bağlı dövlət tərəfindən həyata keçiriləcək tədbirlər nəzərə alınmaqla dövlət "bərabər vergi prinsipi" kontekstində diqqətli olmalıdır. Nəzəri cəhətdən bu prinsip ondan ibarətdir ki, mənfəət vergisinin vahid dərəcəsi müəyyən edildikdə, böyük mənfəət əldə edən şirkətlər vergi üstünlüyünə malik olacaq və vergi yükü kiçik biznesin üzərinə düşəcək, ona görə də mütərəqqi vergi diqqət mərkəzində saxlanılmalıdır.

Müasir iqtisadi şəraitdə iqtisadiyyatın əsas amili olan sahibkarlığın inkişafı və sahibkarlıq fəaliyyətinin daha da təkmilləşdirilməsi, kölgə iqtisadiyyatının səviyyəsinin minimuma endirilməsi, vergi güzəştlərinin səmərəliliyinin artırılması diqqət mərkəzində saxlanılır. Onu da qeyd edim ki, bu gün Azərbaycanda iqtisadiyyatın bütün sahələrində tənəzzül sürətini minimuma endirmək üçün monetar və fiskal siyasət cəmiyyətin həyatının yaxşılaşdırılması üçün beynəlxalq təcrübədən və standartlardan istifadəyə yönəldilməlidir. Məqsəd gələcəkdə ölkədə innovativ sahələrin inkişaf etdirilməsi, investisiyaların stimullaşdırılması, bu sahələr üzrə gəlirlərin artırılması və müvafiq olaraq büdcə gəlirlərinin artırılmasıdır. Qeyd

edək ki, ölkə üzrə daxili investisiyaların strukturunda mühüm paya malikdir (64,0%). Buna görə də, xarici investisiyaların əhəmiyyətli dərəcədə artması fonunda ümumi sərmayədə ciddi artım müşahidə oluna bilər.

Banklar ölkə iqtisadiyyatının mərkəzində dayanır, istehsal və ticarət, kənd təsərrüfatı və cəmiyyət arasında vasitəçilik edir. İqtisadi transformasiya prosesində kommersiya bankları xüsusi rol oynayır. Ölkənin real sektorun inkişafındakı uğurları kommersiya banklarının səmərəli fəaliyyətindən asılıdır. Ümumiyyətlə, bank sisteminin inkişafı ölkə iqtisadiyyatının inkişafı üçün mühüm şərtlərdən biridir və bank sisteminin inkişafı hər bir kommersiya bankının səmərəli fəaliyyətindən asılıdır (Quliyeva A.E, 2021). Bankların məqsədi mənfəət əldə etməkdir. Bank düzgün siyasət apararsa, kifayət qədər resursa malik olarsa və onları düzgün istiqamətə apararsa, müştərilərin rəğbətini və etibarını qazanarsa, qazanc əldə etmək ehtimalı daha yüksəkdir. Prezidentin sərəncamına əsasən işğaldan azad edilmiş ərazilərdə infrastrukturun bərpası işlərinə başlanılıb. Qarabağda işğaldan azad edilmiş torpaqların bərpasına daxili və xarici investisiyalar qoyulacaq. Bəzi ölkələr bu investisiyaları dəstəkləmək istəyir. Bütün bərpa işlərində banklar da mühüm rol oynayır. Ziraat Bankı (ZB) Şuşada filial açaraq rayondakı sahibkarlara həm dövlət qurumları vasitəsilə, həm də onların xərclərini ödəmək üçün yüngül kreditlər verməyi planlaşdırır. ZB-nin İdarə Heyətinin Sədrinin təmsil olunduğu Caspian Energy Club vasitəsi ilə Qarabağ və Qara dəniz ölkələrindən Qarabağa investisiyaların cəlb edilməsi mümkün olacaqdır. “Ziraat Bank Azərbaycan” ASC ilə AR Kənd Təsərrüfatı Nazirliyinin Kənd Təsərrüfatı Kreditləri və İnkişafı Agentliyi arasında kənd təsərrüfatına dəstək məqsədilə imzalanmış əməkdaşlıq müqaviləsinə əsasən, bank hazırda Azərbaycanda sahibkarlıq fəaliyyəti ilə məşğul bir çox hüquqi və fiziki şəxslərə güzəştli kreditlər təklif edir (Qasımlı V., 2020). Kənd Təsərrüfatı Kredit və İnkişaf Agentliyi (AKİA) ilə əməkdaşlıq çərçivəsində agentlik tərəfindən kənd təsərrüfatı sektorunun inkişafı üçün ayrılan kreditlər ildə 7% dərəcəsi ilə veriləcək və aqrar sektorda innovativ metodların tətbiqi təşviq ediləcək.

Qeyd edək ki, kreditin müddəti damazlıq heyvanlara 3 il, kiçik və orta kreditlər, digər kənd təsərrüfatı istehsalat alətlərinin alınması və güzəştli şərtlərlə iri həcmli kreditlər üçün 5 ildir. Kreditin maksimal məbləği 1 000 000 manatdır və 200 000 manatdan yuxarı kreditlər yalnız kənd təsərrüfatı istehsalı alətlərinin alınmasına verilir.

Bütövlükdə bank sisteminin inkişafı ölkə iqtisadiyyatının inkişafı üçün mühüm şərtlərdən biridir və bank sisteminin özünün inkişafı hər bir kommersiya bankının səmərəli fəaliyyətindən asılıdır (Мамедов З. Ф., Велиев Э. Н. & Вейсов Е. Н., 2021). Ölkə iqtisadiyyatının özəyini təşkil edən banklar istehsal və ticarət, kənd təsərrüfatı ilə cəmiyyət arasında vasitəçilik edirlər. Sosial-iqtisadi transformasiya prosesində banklar xüsusi rol oynayır. Ölkənin real sektorun inkişafındakı uğurları kommersiya banklarının səmərəli fəaliyyət göstərməsindən asılıdır (Болдырева Л.В., & Солонина С.В., 2016). Müasir iqtisadi fəaliyyəti bank sistemi olmadan təsəvvür etmək mümkün deyil. Dünya iqtisadiyyatına inteqrasiya edən Azərbaycan Respublikası üçün bank işinin səmərəliliyinin artırılması ən mühüm məsələlərdən biridir. Azad edilmiş torpaqlarda ölkənin bank sisteminin rolu kifayət qədər səmərəlidir. Dövlət bu sahənin inkişafına hərtərəfli dəstək verməlidir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Azərbaycan iqtisadiyyatının müasir şəraitdə maliyyə sektorunun əsas istiqamətləri davamlı iqtisadi inkişafın təmin edilməsi, bu sektorda fiskal və monetar tənzimlənməsində müəyyən dəyişikliklərin edilməsidir. Ölkədə iqtisadi islahatların həyata keçirilməsi kontekstində iqtisadi siyasətin müvafiq xüsusi şərtlərə uyğun həyata keçirilməsi bu dövr üçün çox mühümdür. Pandemiya şəraitində ölkədə fiskal və monetar siyasətlərini həyata keçirməklə həm milli, həm də regional iqtisadiyyatları stimullaşdırmaq, maliyyə sektorunda müəyyən sabitliyi təmin etmək mümkündür.

Aparılan araşdırma nəticəsində əsaslandırılmış mülahizələrə əsasən Azərbaycanda məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi və hər bir rayonun maliyyə potensialından tam istifadə edilməsi ölkənin iqtisadi inkişafı üçün mühüm əhəmiyyət kəsb etdiyi müəyyən olunmuşdur. Ölkənin sosial-iqtisadi inkişafının təmin edilməsi regionların təbii-iqtisadi, ekoloji və digər xüsusiyyətlərinin hərtərəfli qiymətləndirilməsi əsasında mümkündür. Bu baxımdan ölkədə məhsuldar qüvvələrin şüurlu şəkildə yerləşdirilməsi, təbii sərvətlərdən, əmək ehtiyatlarından və digər imkanlardan səmərəli istifadə etməklə iqtisadiyyatın regionlarda inkişaf etdirilməsinə aiddir. Bunun əsasında da regional sosial-iqtisadi inkişaf üçün maliyyə mexanizmləri ilə təkminləşdirilmə istiqamətləri müəyyən edilmişdir.

Tədqiqatın nəticəsində, Azərbaycanda regionların sosial-iqtisadi inkişafında maliyyə mexanizmləri qiymətləndirilmiş və təhlil edilmişdir. Ümumi sosial-iqtisadi inkişaf üzrə regional inkişafın zəruriliyi və əhəmiyyəti böyük önəm kəsb etməkdədir. Pandemiya şəraitindən sonra ölkənin maliyyə mexanizminin əsas istiqamətlərinə uyğun olaraq, regionlarda maliyyə sabitliyinin təmin edilməsi nəzərə alınmaqla aşağıdakı təkliflər verilmişdir:

1) Sistemin əsas məzmunu vahid informasiya məkanının yaradılması, xarici sərmayələrin cəlb olunması şərtləri haqqında məlumatların açıq alınmasıdır. Bu, ölkəyə daha çox xarici sərmayənin cəlb edilməsinə kömək edəcək və regionda

səmərəliliyin artırılması ilə rəqabət qabiliyyətinin yüksəldilməsinə töhfə verəcək. Təklif oluna bilər ki, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi mövcud maliyyə mexanizmlərindəki boşluqların aradan qaldırılması ilə bağlı təkliflər hazırlasın. Təkliflər vergi sistemində müəyyən dəyişikliklər və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində olmalıdır.

2) Kiçik və orta sahibkarlar və aşağı rentabelliyi olan bizneslər üçün vergi tənzimləmələrində dəyişikliklər etmək lazımdır. Bundan əlavə, onlar üçün vergi güzəştləri olmalıdır. Bu müəssisələr regionun iqtisadiyyatının genişlənməsində mühüm rol oynayacaq.

3) Özəl kapitalın, o cümlədən investisiya fondları şəklində cəlb edilməsi mexanizmini işləyib hazırlamaq və konkret regionlara cəlb etmək lazımdır. Bunun üçün investisiya fondları haqqında qanunvericilik aktlarının daha çevik olması üçün dəyişikliklər edilməsi, habelə özəl kapitalın cəlb edilməsi üçün stimulların müəyyən edilməsi tələb olunur.

4) Regionlarda dövlət sektoru müəssisələrində şəffaflığın artırılması investisiya cəlbediciliyinə daha da müsbət təsir edə bilər. Belə ki, kiçik və orta sahibkarlığın rəqabət qabiliyyətinin yüksəldilməsi və onların likvidliyinin artırılması üçün xüsusi investisiya proqramı həyata keçirilməlidir. Kənd təsərrüfatı sənayesinin rəqabət qabiliyyətinin artırılmasına yönəlmiş investisiya proqramı hazırlanmalıdır. Turizmə, o cümlədən turizm xidmətlərinə, nəqliyyat və infrastruktur obyektlərinə, qonaqpərvərlik və rekreasiya obyektlərinə investisiyaların artırılması üzrə müəyyən addımlar atılmalıdır. Mədəniyyət, səhiyyə və idmanla bağlı xidmətlər daxil olmaqla xidmət sənayesi müəssisələrinin yaradılması üçün investisiya proqramını hazırlanmasını zəruri edir. Bunun üçün də regionlarda müəssisələr üçün şəffaflığın artırılması üçün tədbirlər planı hazırlayıb və onun reallaşdırılması üçün addımlar atılmalıdır.

5) Regionların sosial-iqtisadi inkişafı və iqtisadiyyatın neft sektorundan asılılığını azaltmaq üçün qarşıdakı illərdə, konkret olaraq 2022-ci ildə də qeyri-neft

büdcəsinin gəlirlərinin artırılması davam etdirilməlidir. Fikrimcə, bu, maliyyə sektorunun daha səmərəli əlaqələndirilməsini asanlaşdıra bilər. Bunun üçün, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimada əsaslanan münasibətləri inkişaf etdirmək, büdcə gəlirlərinə vahid nəzarət mexanizminin tətbiqini genişləndirmək, o cümlədən vergi borclarının ödənilməsi üçün əlverişli şərait yaratmaq, vergi sahəsində şəffaflığı təmin etmək lazımdır. Sosial yönümlü büdcə xərclərinin təmin edilməsinə və bu istiqamətdə həyata keçiriləcək proqram və tədbirlərin dövlət büdcəsi vəsaiti hesabına maliyyələşdirilməsinə diqqət yetirmək və onun şəffaflığını təmin etmək lazımdır.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dili


1. Abdullayev S. Q.(2015), "Maliyyə mexanizmi maliyyənin idarə olunması sistemidir", 82 səh.
2. Ataşov B.X., Novruzov N. A. və İbrahimov E.Ə.(2014), "Maliyyə nəzəriyyəsi" , Bakı, "Kooperasiya nəşriyyatı" , 648 səh
3. Azəri N., "Azərbaycanda həyata keçirilən uğurlu siyasət regionların dinamik inkişafını təmin edib", Yeni Azərbaycan.-2020.-3 sentyabr.- S.7
4. Bayramov V., "Regionların inkişafı əhalinin rifahının yaxşılaşdırılmasına xidmət edir". Xalq qəzeti .-2020.- 9 iyun.- S.5
5. Bədəlov Ş.Ş., "Regionların tarazlı sosial-iqtisadi inkişafında proqram-məqsədli büdcə maliyyələşdirilməsinin rolu",//Maliyyə və uçot : jurnal .-2013.- № 7.- S.20-31.
6. Əkbərov R.M. (2012) " Makroiqtisadi proseslərin tənzimlənməsində maliyyə mexanizmlərinin rolu ", "AMEA-nın xəbərləri", №3 s. 29-32
7. Ələkbərov Ə., "Regionların sosial-iqtisadi inkişafı dövlət siyasətinin prioritetidir", Xalq qəzeti, 2020, Fevral 18, s.9
8. Əliyev S. Çıraqov E. (2020) "Pandemiya İlə Mübarizədə Dövlətin Antiböhran Siyasəti İctimai Rəydə -Analitik Hesabat", Sosial Tədqiqatlar Mərkəzi, 104 səh.
9. Əliyev S., "Dövlət proqramlarının icrası regionların inkişafında başlıca rol oynayır".//Azərbaycan.-2020.- 11 mart.- S.7.
10. Gülməmmədova İ.H. (2015), Regionların sosial-iqtisadi inkişafının maliyyə problemləri , "Azərbaycan Dövlət İqtisad Universiteti", 83 səh
11. Hüseynova X. M. (2010), "Azərbaycanda regional inkişafın idarə olunması problemləri", 376 səh.

12. İsayev E., “Sənayədə investisiya qoyuluşunun stimullaşdırılmasının əsas istiqamətləri”, //Kooperasiya/elmi-praktiki jurnal.-2020.- №1.- S.128-131

13. Qasımlı V., “Prezident İlham Əliyevin rəhbərliyi ilə maliyyə-bank sektorunda inkişafın yeni mərhələsi başlayır”,//Xalq qəzeti.-2020.- 11 fevral.- S.7.

14. Quliyeva A.E., “Azərbaycanda regional səviyyədə maliyyə təminatı mexanizmlərinin gücləndirilməsi istiqamətləri”,//Kooperasiya / elmi-praktiki jurnal,.-2020.-№4 (59).- S.110-118.

15. Quliyeva A.E.,”Azərbaycanda regionların perspektiv inkişafı və maliyyə təminatının gücləndirilməsi problemləri”,Bakı: Kooperasiya, 2021, 306 s.

16. Mahmudov M.M., Mahmudova İ.M.(2011) Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi, Bakı, “İqtisad Universiteti”, 370 səh

17. Məmmədli E., “Dövlət maliyyə nəzarəti və onun təkmilləşdirilməsi”, //Kooperasiya/elmi-praktiki jurnal .-2020.- №1.- S.88-93.

18. Məmmədova N. “Regionların sosial-iqtisadi inkişafının dövlət proqramları ölkənin sürətli tərəqqisinə mühüm stimul yaradır”, Xalq qəzeti, 2018, 18 avqust, S.4.

19. Məmmədova N. İ. (2016), “Sənaye müəssisələrinin ərazi üzrə təşkili məsələləri”, 96 səh.

20. Namazova N. V. (2012) “Gömrük vergi mexanizminin təkmilləşdirilməsi yolları”, Bakı, 62 səh.

21. Nuriyev Ə.. “Regional idarəetmənin əsasları”; Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət idarəçilik Akademiyası.- B.: Elm, 2007.- 428 s.

22. Nuriyev Ə.. “Regional siyasət və idarəetmənin əsasları”; Azərb. Resp. Prezidenti yanında Dövlət İdarəçilik Akad., Geostrateji Araşdırmalar Mərkəzi.- B.: Elm və təhsil, 2011.- 513 s.

**Türk dili**

1. Şen H. (2017) “ Vergi teorisi ve politikası”, “Barış Arıkan yayınları”, Ankara. 27 s.
2. Uğur O. (2017), “Bölgesel kalkınma politikaları və Ağrı ilinin iktisadi analizi” , 105 s.

**İngilis dili**

1. Babaeva Z.S., Shahbanov R.B., Shahbanova S.R., Asekova B.N. and Postnova M.V., (2017). “Problems and contradictions of the financial system of the agro-business industry of Russia in contemporary conditions and methodological aspects of their overcoming”, p.467-482.
2. Bogdanski M. “Modern theories of the regional development – a review of some concept, “Oeconomia Copernicana”, 2012, № 2 , p 25-41
3. Ibrahimov I.H. (2016). “Economy of agrarian sector”. (Monograph). Baku, p. 655.
4. Samuel B. S., Riccardo B., Michael R. & Gianluca S.(2019) “Financial mechanisms for Innovative Social and Solidarity Economy Ecosystems”, 108 p.
5. Securities and Exchange Commission (2013). “Investor Bulltein Hedge Funds” 6 p.
6. Securities and Exchange Commission (2016). “Mutual funds and ETFS-Guide for investors”, 52 p.
7. Veronica V.N., Tatiana M.K., Alla G.G., Oleg A.K. & Denis E.G.(2016) “The Budgeting Mechanism in Development Companies”, “International Journal of Environmental & Science Education”, Vol.11 , No. 15, p 7726-7744
8. Yuri B. M., Nikolai S. S., Nina V. N., “Evaluation of competitive advantages of regional economic clusters”, Revista Espacios, 2018, №31, p 14

### *Rus dili*

1. Болдырева Л. В., & Солонина С. В.. “Влияние банковской системы на социально-экономическое развитие региона. Государственное и муниципальное управление”. Ученые записки, 2016, №(4), стр.70-77.
2. Гаджиева С. Т.. “Основные направления стимулирования малого и среднего предпринимательства в Азербайджанской республике”. Вестник науки и образования, 2019, №(6), стр.5-10.
3. Мамедов З. Ф., Велиев Э. Н., Вейсов Е. Н..,”Банковский сектор Азербайджана: новые вызовы и возможности”, Молдова: 2021.104 стр.

### *İnternet resursları*

1. “2021-ci ilin 10 ayı ərzində vergi daxilolmaları və sosial sığorta ödəmələri sahəsində əldə olunan nəticələr haqqında”, 12 noyabr 2021, https://www.taxes.gov.az/az/post/1655 (Giriş tarixi: 05.02.2022)
2. “Balanced Vs. Unbalanced Growth for Economic Development.” Economics Discussion, 11 Aug. 2015, www.economicsdiscussion.net/unbalanced-growth-theory/balanced-vs-unbalanced-growth-for-economic-development/4636.. (giriş tarixi: 11.12.2021)
3. “Bolqarıstanın Baş naziri Boyko Borisov İlham Əliyevə telefonla zəng edib”, 01 yanvar 2021, https://president.az/az/articles/view/49872/print (giriş tarixi: 05.02.2022)
4. “İlham Əliyev Mikayıl Cabbarovu yeni vəzifəyə təyin olunması ilə əlaqədar qəbul edib”, 23 oktyabr 2019, https://president.az/az/articles/view/34549/print (giriş tarixi: 05.02.2022)
5. “İlham Əliyev Türkiyənin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimdə iştirak edib”, 30 noyabr 2019, https://president.az/az/articles/view/35054 (giriş tarixi: 05.02.2022)

6. “Koronavirusla Mübarizəyə Dəstək Fondu”, http://COVID19fund.gov.az/ (giriş tarixi: 05.02.2022)

7. “Marja biznes və maliyyə xəbərləri agentliyi , Mərkəzi Bankın 2021-ci il üçün Bəyanatı”, 29 Dekabr 2020, https://marja.az/65557/merkezi-bankin-2021-ci-il-ucun-beyanati, (Giriş tarixi: 28.03.2022)

8. “Regionların inkişafının iqtisadi artımda rolu”, 12 avqust 2021, https://www.taxes.gov.az/az/post/1518 (giriş tarixi: 05.02.2022)

9. “Son 17 ildə Azərbaycanda regionlardan vergi yığımları 23 dəfədən çox artıb”, 12 Avqust 2021, https://report.az/maliyye-xeberleri/son-17-ilde-azerbaycanda-regionlardan-vergi-yigimlari-23-defeden-cox-artib/ (giriş tarixi: 05.02.2022)

10. “Von Thunen Model.” Von Thunen Model - an Overview | ScienceDirect Topics, www.sciencedirect.com/topics/earth-and-planetary-sciences/von-thunen-model (giriş tarixi: 11.12.2021)

11. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, “Azərbaycanın Kənd Təsərrüfati Statistik məcmuə”, Bakı 2021. https://www.stat.gov.az/source/agriculture/(Giriş tarixi: 05.02.2022)

12. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, “Azərbaycanın regionları Statistik məcmuə”. Bakı 2021. https://www.stat.gov.az/source/regions/(Giriş tarixi: 05.02.2022)

13. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Dövlət Proqramları - 26 Sentyabr 2012, https://economy.gov.az/article/state-programs/21429 (giriş tarixi: 05.02.2022)

14. Britannica, The Editors of Encyclopaedia. "location theory". Encyclopedia Britannica, 18 Nov., 2014, https://www.britannica.com/topic/location-theory (giriş tarixi: 10.04.2022)

15. European Commision, “Crowdfunding explained”, https://ec.europa.eu/growth/access-finance-smes/guide-crowdfunding/what-crowdfunding/crowdfunding-explained_en (giriş tarixi: 11.12.2021)

16. Goodshore C., Crowdfunding vs. Peer-to-Peer Lending: Which Funding Option Will Work Better for You?, 16 July, 2020 https://www.business.org/finance/loans/crowdfunding-vs-peer-to-peer-lending/ (giriş tarixi: 11.12.2021)

17. Muradov M., “2021'de Azerbaycan bölgesel etkinliğini artırdı”, 25.01.2022, https://www.aa.com.tr/tr/analiz/2021de-azerbaycan-bolgesel-etkinligini-artirdi/2484693 (giriş tarixi: 05.02.2022)

18. Order of liquidity definition, 12 June, 2021, https://www.accountingtools.com/articles/what-is-order-of-liquidity.html (giriş tarixi: 11.04.2022)

19. The Economic Times, “What is Hedge Fund”, https://economictimes.indiatimes.com/definition/hedge-fund (giriş tarixi: 11.12.2021)

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** Azərbaycan Respublikasında 2014-2021-ci illər üzrə makroiqtisadi göstəricilərin inkişaf dinamikası........................................................................................................54
**Cədvəl 2:** Regionlar üzrə yeni yaradılmış daimi iş yerləri ........................................................55
**Cədvəl 3:** Əsas kapitala investisiyaların həcmində ayrı-ayrı iqtisadi rayonların payı (faizlə) .....56
**Cədvəl 4:** İqtisadi regionlar üzrə sənaye məhsulunun istehsalında ayrı-ayrı iqtisadi rayonların payı (faizlə)........................................................................................................57
**Cədvəl 5:** Aqrar bölməyə ayrılan kredit qoyuluşlarının inkişaf dinamikası.................................58

## Qrafiklərin siyahısı

**Qrafik 1:** Regional inkişaf nəzəriyyəsi.........................................................................15
**Qrafik 2:** Veberin "məkan üçbucağı"...........................................................................19
**Qrafik 3:** Regionların sosial-iqtisadi inkişafında dövlət tənzimləməsini öngörən nəzəriyyələr ..21
**Qrafik 4:** Maliyyə mexanizminin hissələri......................................................................51
**Qrafik 5:** Regional səviyyədə investisiya planının əsas funksiyaları..........................................61
**Qrafik 6:** Dövlət büdcəsinin kəsiri maliyyələşdirən 4 alternativ mənbə.....................................69